N38 (1137) 24-30 sentyabr 2020-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## COVID-19-la mübarizə çərçivəsində yeni təcili tibbi yardım avtomobillərinin təminatı vacib amillərdəndir




Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən ölkəmizə yeni gətirilən təcili tibbi yardım avtomobilləri ilə tanış olublar. Yeni gətirilən avtomobillər həm sadə, həm də reanimobil kimi dəstləşdirilib. Ambulansların salonlarının təchizat səviyyəsi xəstələrə bütün lazımi ilkin, təcili və təxirəsalınmaz tibbi yardımın göstərilməsinə və reanimasiya tədbirlərinin icra olunmasına imkan verir.

"Ford Transit" bazasında təcili tibbi yardım avtomobilləri isə ana xərək və döşək, sovurma avadanlığı, oksigen balonu və s. ilə təchiz edilib.

Qeyd edək ki, Azərbaycan COVID-19-la ən səmərəli mübarizə aparan ölkələrdəndir. Hazırda ölkəmizdə koronavirus xəstələri üçün 46 xəstəxana xidmət göstərir. Pandemiya dövründə laboratoriyaların sayı isə 6-dan 45-ə çatdırılıb. Modul tipli 11 xəstəxana və 2 hospital istifadədir. Ölkə üzrə aparılan test sayı isə 1 milyonu ötüb. Həyata keçirilən tədbirlərin əsas məqsədi Azərbaycan vətəndaşının sağlamlığının qorunmasıdır.

## "Abşeron" yatağının istismarı təbii qaza olan daxili tələbatının təmin edilməsinə əhəmiyyətli töhfə verəcək



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak edib.

Prezident İlham Əliyevə "Abşeron" yatağında quraşdırılacaq dayaq blokları və digər sualtı qurğular barədə məlumat verilib.

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorunda suyun 500 metr dərinliyində yerləşən "Abşeron" yatağının ehtiyatları 350 milyard kubmetr qaz və 45 milyon ton kondensat həcmində qiymətləndirilir. Yatağın istismarı Azərbaycanın təbii qaza artmaqda olan daxili tələbatının təmin edilməsinə əhəmiyyətli töhfə verəcək.

Sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və Real Televiziyasına müsahibə verib.

**- Cənab Prezident, bu gün ölkəmizin neft-qaz sektorunun inkişafında növbəti mühüm hadisənin – "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasiminin şahidi oluruq. Bu layihənin əhəmiyyətini necə qiymətləndirirsiniz?**

- Bu, doğrudan da çox əhəmiyyətli hadisədir. Çünki bu gün faktiki olaraq "Abşeron" qaz-kondensat yatağının yeni mərhələsi başlayır və əminəm ki, bu mərhələ də uğurlu olacaq. Beləliklə, Azərbaycan öz neft-qaz strategiyasında önəmli hadisəyə, önəmli addıma imza atacaqdır.

Bizim neft hasilatımızın sabit qalması üçün bu yatağın böyük önəmi var. Çünki 100 milyon ton kondensat - bu da Bakı-Tbilisi-Ceyhan ixrac boru xətti ilə dünya bazarlarına çıxarılacaq. Beləliklə, "Azəri-Çıraq-Günəşli"-də mövcud olan və davam edən təbii hasilat tənəzzülünü "Abşeron" yatağı bir qədər kompensasiya edəcək.

Ona görə bu, növbəti böyük hadisədir. Bütün bu qurğular Azərbaycanda istehsal olunub. Mən keçən ay burada olarkən "Qarabağ" dayaq blokunun dənizə göndərilməsini qeyd edirdim. Artıq bu blok burada bizim qarşımızdadır, dənizdədir və bu gün növbəti dayaq bloklarının dənizə göndərilməsi, əlbəttə ki, çox əhəmiyyətli hadisədir. Əminəm ki, qrafik üzrə iki ildən sonra "Abşeron" yatağından ilk qaz və kondensat çıxarılacaqdır.

**- Cənab Prezident, Azərbaycan qədim neft diyarıdır. Ölkəmizdə uzun illər - həm çar Rusiyası dövründə, həm Sovetlər dövründə, həm də indiki müstəqillik dövründə neft hasil olunub. O dövrlərdə və müstəqillik dövründə neft amilinin rolunu necə xarakterizə edərdiniz?**

-Bəli, Azərbaycan o ölkədir ki, XIX əsrin ortalarında ilk dəfə sənaye üsulu ilə neft hasil edilibdir. XX əsrin ortalarında tarixdə ilk dəfə dəniz yataqlarından neft Azərbaycanda hasil edilibdir. Ancaq əgər biz tarixə baxsaq görərik ki, o vaxt Azərbaycanda çıxarılan neft Azərbaycan xalqının maraqlarına xidmət etmirdi. Çünki çar Rusiyası dövründə varlılar varlanırdı, amma kasıblar daha da ağır vəziyyətə düşürdü, insanların əməyi çox ağır idi. Bir daha deyirəm, Azərbaycanda çıxarılan neft Azərbaycan xalqının maraqlarına xidmət etmirdi. Əgər biz o vaxt müstəqil ölkə olsaydıq, mən tam əminəm ki, Azərbaycan dünyanın ən zəngin ölkəsinə çevrilə bilərdi. Ancaq biz müstəqil deyildik. Düzdür, o vaxt zəngin neft maqnatları, onlar əldə etdikləri gəlirlərin bir hissəsini xeyriyyəçiliyə sərf edirdilər, xüsusilə Hacı Zeynalabdin Tağıyev, Muxtarov, Əsədullayev. Tağıyev, bildiyiniz kimi, Bakıya Şollar su kəmərini çəkdirmişdir, eyni zamanda, təhsilə böyük əhəmiyyət verirdi.

Sovet dövründə - o vaxt əgər 1920-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini əldən verməsəydi, hesab edirəm ki, yenə də ən zəngin ölkələrin birinə çevrilərdi. O vaxt – xüsusilə müharibə illərində neft mədənlərində işləyən insanlar çox ağır şəraitdə yaşayırdılar, gecə-gündüz çalışırdılar. Bir rəqəmi gətirə bilərəm ki, müharibə zamanı Azərbaycanda rekord səviyyədə neft hasil edilmişdir – 23 milyon ton. Yəni, cəmi bir-iki il ərzində neft hasilatı təqribən iki dəfədən çox artırıldı. O vaxt müasir texnologiyalar yox idi, bu artım daha çox insan əməyinin istismarı nəticəsində baş verirdi.

**(davamı 2-ci səhifədə)**

## "Azərbaycan BMT-nin daha da güclənməsi, onun beynəlxalq münasibətlərdə əhəmiyyətinin və nüfuzunun yüksəlməsi üçün digər dövlətlərlə birgə işləməyə hazırdır"



***Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda deyib.***

**O, bildirib:** - Azərbaycan Respublikası 120 ölkənin yekdil qərarı ilə 2016-cı ildə Qoşulmama Hərəkatının sədri seçilmişdir. 2019-cu ilin oktyabrında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində Bakıda keçirilmiş 18-ci Zirvə toplantısında Azərbaycan sədrliyi öz üzərinə götürmüşdür.

Qoşulmama Hərəkatına üzv dövlətlər BMT Nizamnaməsinin imzalanmasının 75-ci ildönümünə həsr edilmiş bu Yüksək Səviyyəli İclasın keçirilməsini yüksək qiymətləndirirlər.

Qoşulmama Hərəkatı təsdiq edir ki, narahatlıq doğuran yeni sahələr və çağırışlar meydana gəlib. Burada BMT Nizamnaməsinin prinsip və məqsədlərinin, beynəlxalq hüququn prinsiplərinin bərqərar olunması və qorunması üçün beynəlxalq ictimaiyyət tərəfindən müvafiq öhdəlik yenidən nümayiş etdirilməlidir.

Yaranmasının 75-ci ildönümündə biz BMT-nin gücləndirilməsi və müasirləşdirilməsi, Baş Assambleyanın canlandırılması, beynəlxalq sülh və təhlükəsizlik sahəsində təşkilatın demokratik, məsuliyyətli, universal və təmsilçiliyi təmin edən orqanı kimi nüfuzunun möhkəmləndirilməsi, habelə müasir geosiyasi reallıqlara cavab verən daha demokratik, məhsuldar, səmərəli, şəffaf və təmsilçiliyi təmin edən orqana çevrilməsi üçün BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasına çağırırıq.

Bu il Qoşulmama Hərəkatı üçün də əlamətdardır, çünki biz Hərəkatın təməl prinsiplərini özündə əks etdirən Bandunq Bəyannaməsinin qəbul edilməsinin 65 illiyini qeyd edirik.

Hər iki ildönümü bizə BMT Nizamnaməsində və Bandunq Bəyannaməsində əks olunmuş əsas hədəflərə nail olmaq istiqamətində əldə etdiyimiz tərəqqini nəzərdən keçirməyə və bizə - BMT-yə üzv olan dövlətlərə meydana çıxmaqda davam edən çoxşaxəli çağırışlara ümumi baxışla və gücümüzü səfərbər etməklə necə cavab verəcəyimiz üzərində düşünməyə imkan yaradacaq.

**Prezident İlham Əliyev çıxışının ikinci hissəsində deyib:**

- İndi isə mən Azərbaycan adından çıxış edirəm.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatına üzv olmuşdur. Müstəqillik ən yüksək dəyərdir və Azərbaycan xalqının hər zaman azad və müstəqil dövlətdə yaşamaq ümidinin və istəyinin təzahürüdür. Təqribən 30 illik müstəqilliyi dövründə Azərbaycan müxtəlif sahələrdə çox böyük tərəqqiyə nail olmuşdur.

Bütün üzv dövlətlər BMT Nizamnaməsinə qoşulmaqla hər hansı bir ölkənin siyasi müstəqilliyinə və ərazi bütövlüyünə qarşı güclə hədələməkdən və gücün tətbiqindən çəkinmək öhdəliyini götürmüşlər. Lakin Ermənistan öz öhdəliklərini kobud şəkildə pozmuş və Azərbaycana qarşı hərbi güc tətbiq etmişdir. Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf yeddi rayonunu işğal etmişdir. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Təəssüflər olsun ki, Ermənistan hələ də bu qətnamələrə məhəl qoymamaqda davam edir.

Ermənistanın baş naziri ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların format və mahiyyətini məqsədyönlü şəkildə pozur. Onun "Qarabağ Ermənistandır" bəyanatı danışıqlar prosesinə ciddi zərbədir. Onun Azərbaycana qarşı irəli sürülmüş qəbuledilməz "yeddi şərti" tərəfimizdən rədd edilmişdir. Sülhə nail olunması üçün bizim yeganə şərtimiz var. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmalıdır. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır.

Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələrinin yaradılmasını elan etmişdir. Bu, Ermənistan rəhbərliyinin yeni təcavüzkar niyyətini açıq şəkildə nümayiş etdirir. Ermənistanın müdafiə naziri Azərbaycanı "yeni ərazilər uğrunda yeni müharibə" bəyanatları ilə hədələyir.

Nasizmin şöhrətləndirilməsi Ermənistanın dövlət siyasətidir. Mənfur nasist general Qaregin Njde milli qəhrəmana çevrilib. Ermənistanın rəsmi ideologiyasında "Azərbaycanofobiya" siyasəti hökm sürür. Gənc nəslə Azərbaycan xalqına nifrət aşılanır. Ermənistan bu yaxınlarda təcavüzkar və hücum xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiyası qəbul edib. Milli təhlükəsizlik strategiyasında irqçi, şovinist və "Azərbaycanofob" fikirlər əks olunub. Təcavüzkar ritorika və təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını nümayiş etdirir. Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanın növbəti hərbi təcavüzdən çəkindirilməsinə dəvət edirik.

Azərbaycan BMT ilə səmərəli əməkdaşlıq qurmuşdur. Ölkəmiz 155 dövlətin dəstəyi ilə 2012-2013-cü illərdə Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Bundan əlavə, hazırda Azərbaycan 120 dövlətin yekdil dəstəyi ilə Qoşulmama Hərəkatına sədrlik edir.

BMT Baş Assambleyasının 31-ci xüsusi sessiyası cari il iyulun 10-da çağırılmışdır. Hesab edirəm ki, xüsusi sessiya zamanı dövlət və hökumət başçıları səviyyəsində ümumi müzakirələr pandemiyanın təsir etdiyi bütün sahələrin kompleks şəkildə müzakirə olunmasında çərçivə rolunu oynayacaqdır. Həmçinin onun yaratdığı fəsadların aradan qaldırılması səylərinə böyük töhfə verəcəkdir.

Həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycanda COVID-19 ilə bağlı vəziyyət nəzarət altındadır. ÜST pandemiya ilə mübarizədə Azərbaycanı nümunəvi ölkə adlandırmışdır.

Azərbaycan dünyanın tanınmış multikulturalizm mərkəzlərindəndir. 2008-ci ildə Azərbaycan tərəfindən başlanılmış "Bakı Prosesi" mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi məqsədini daşıyır.

Azərbaycan sabit, müasir və demokratik ölkədir. Demokratiyanın inkişafı və insan hüquqlarının qorunması hökumətimizin başlıca prioritetləri sırasındadır.

Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf etmiş və son 17 ildə ÜDM üç dəfə artmışdır. Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında böyük tərəqqi əldə etmiş Azərbaycan qısa vaxt ərzində BMT-yə iki dəfə könüllü milli hesabat təqdim edən azsaylı ölkələrdən biridir. "2020-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatı"nda yer almış "Dayanıqlı İnkişaf Hədəfləri İndeksi"nə görə Azərbaycan 166 ölkə arasında 54-cü yerdədir.

Əminəm ki, hazırkı müzakirələrimiz zamanı biz multikulturalizmin və beynəlxalq əməkdaşlığın simvolu olan BMT-yə açıq və güclü dəstək verəcəyik. Azərbaycan BMT-nin daha da güclənməsi, onun beynəlxalq münasibətlərdə əhəmiyyətinin və nüfuzunun yüksəlməsi üçün digər dövlətlərlə birgə işləməyə hazırdır.

Biz neft gəlirlərini çox səmərəli yollarla yerləşdirmişik, onları qoruyuruq və ordumuzu gücləndiririk. Ona görə müstəqilliyin üstünlükləri göz qabağındadır. Əgər kimsə hansısa nostalgiyaya görə keçmiş dövrləri məhəbbətlə xatırlayırsa, biz o adamlara tutarlı cavablar verməliyik. Müstəqilliyə qarşı çıxan və onu aşağılamağa çalışan hər bir fərd dövlətimizə xəyanət edir. Müstəqillik bizim əsas dəyərimizdir və biz nə qədər güclü olsaq, nə qədər qüdrətli olsaq, müstəqilliyimiz o qədər də möhkəm olacaqdır.

**- Cənab Prezident, neft-qaz sektorunda ölkəmizdə həyata keçirilən layihələrin icra vəziyyəti hansı səviyyədədir?**

- Layihələrin icrası uğurla gedir. Bizim əsas gəlir mənbəyimiz “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarıdır. Orada işlər plan üzrə gedir. İndi orada “Mərkəzi-Şərqi Azəri” adlanan yeni layihə icra edilir. Bu layihənin dəyəri təqribən 7 milyard dollara yaxındır. Bu layihənin icrası nəticəsində yeni mənbələrdən hasilat artacaq və təbii ki, enmənin kompensasiyasını təmin edəcəkdir.

“Azəri”, “Çıraq”, “Günəşli” yataqlarında hazırda 120-dən çox quyu fəaliyyətdədir və eyni zamanda, bu yataqların çox zəngin qaz ehtiyatları vardır. Ona şərti olaraq “dərin qaz” deyilir və indi “dərin qaz”ın işlənməsi ilə əlaqədar Dövlət Neft Şirkəti öz tərəfdaşları ilə müvafiq işlər aparır. “Şahdəniz-2” layihəsi icradadır. Artıq TANAP xətti ilə Türkiyəyə ötürülən qazın həcmi ildən-ilə artır. Əgər bir il bundan əvvəl Türkiyə bazarında Azərbaycan qazı 4-cü, 5-ci yerdə idisə, hazırda birinci yerdəyik və bu, həm bizim üçün, həm də Türkiyə üçün çox önəmlidir. Çünki qaz hər bir ölkənin enerji təhlükəsizliyini təmin edir. Bu gün Türkiyəyə qaz qardaş ölkədən gəlir və bu qazın həcminin artırılması istiqamətində əlavə addımlar atılacaq. “Abşeron” yatağında ikinci fazadan çıxarılacaq qaz da TANAP xətti ilə Türkiyəyə ötürüləcək və digər bazarlara ötürülə bilər. Eyni zamanda, “Qarabağ” yatağının işlənilməsi ilə əlaqədar işlər plan üzrə gedir. Hazırda burada gördüyümüz dayaq bloku dənizə göndəriləcək və ümid edirəm ki, bir, iki ildən sonra “Qarabağ” yatağından ilk neft hasil olunacaq. Bu yatağın özəlliyi odur ki, orada neft ehtiyatları daha çoxdur və bizim hasilatımızın sabit saxlanması üçün bunun böyük əhəmiyyəti var. Digər çox perspektivli layihə “Dayazsulu Abşeron” adlanır və bu layihənin də perspektivi çox böyükdür. Bir neçə aydan sonra o yataqlarda ilk qazma işləri aparılacaq. Ümid edirəm ki, biz orada da böyük neft ehtiyatı aşkar edəcəyik. SOCAR-ın təkbaşına iştirak etdiyi “Ümid”-“Babək” layihələrində də işlər plan üzrə gedir. Onlar da çox perspektivli layihələrdir və bizim planımızda bu layihələrin investisiya tutumunu, hasilatını artırmaqdır. Bütövlükdə deyə bilərəm ki, baxmayaraq “Əsrin kontraktı” 1994-cü ildə imzalanıb və o vaxtdan bu günə qədər bir çox kontraktlar imzalanıb və artıq 26 il keçib, Azərbaycanın neft potensialına dünyada maraq azalmır, əksinə, artır.

**- Cənab Prezident, mənim sualım Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlıdır. Danışıqların hazırkı vəziyyətini necə qiymətləndirirsiniz?**

- Mən danışıqların hazırkı vəziyyətini mənfi qiymətləndirirəm. Hesab edirəm ki, Azərbaycan xalqı mənimlə tam razıdır. Bilirsiniz, mən hər zaman, bütün dövrlərdə Azərbaycan xalqına həqiqəti demişəm və hesab edirəm ki, bu, yeganə düzgün siyasətdir. Danışıqlar faktiki olaraq getmir. Mən demişəm ki, biz imitasiya naminə danışıqlarda iştirak etməyəcəyik. O demək deyil ki, biz danışıqlardan imtina edirik, ancaq o deməkdir ki, biz Ermənistanın özünə görə bic siyasətinə qoşulmaq istəmirik. Bu görüntü naminə aparılan danışıqlarda iştirakımız o görüntünün mahiyyətinə uyğun olacaqdır. Faktiki olaraq Ermənistan rəhbəri danışıqlar prosesini pozub, pozur yox, pozub. Çünki onların cəfəng bəyanatları, təxribat xarakterli addımları danışıqları mənasız edir. Əfsuslar olsun ki, Ermənistanın indiki rəhbərliyi bu məsuliyyəti dərk etmir. Onlar bu addımların nəyə gətirib çıxara biləcəyini də düzgün təhlil edə bilmirlər. Halbuki Ermənistanda rasional düşüncəli insanlar, siyasətçilər var. O siyasətçilər özləri artıq bu məsələni qaldırırlar və Ermənistan ictimaiyyətinə öz fikirlərini çatdırırlar ki, Ermənistanın bugünkü rəhbərliyi Ermənistanı uçuruma aparır. Siz bilirsiniz ki, iki il bundan əvvəl Ermənistanda dövlət çevrilişi baş verəndə Azərbaycan buna neytral qaldı. Yəni, biz vəziyyətdən istifadə edib nəyisə əldə etmək fikrində olmadıq. Biz hesab edirdik ki, bu, labüd idi. Çünki Ermənistanın bundan əvvəlki hakimiyyəti erməni xalqında ancaq nifrət hissləri doğururdu və faktiki olaraq bu hərbi-kriminal rejim Ermənistanı tamamilə bərbad vəziyyətə salmışdı. Biz də ümidlərlə yaşayırdıq ki, bəli, yeni hakimiyyət bütün başqa sahələrdə də, bu sahədə də yenilik gətirəcək və o əvvəlki yanlış siyasətə düzəliş edəcək. Xüsusilə mənim Ermənistanın baş naziri ilə Düşənbədəki məlum görüşlərimdən sonra bu fikir daha da möhkəmləndi. O vaxt məndən xahiş olundu ki, onlara vaxt verilsin, Ermənistanda daxili vəziyyət ağırdır, çətindir, keçmiş hakimiyyətin nümayəndələri revanş almaq istəyirlər və bu da danışıqlar prosesinə çox mənfi təsir göstərəcək. Onlar danışıqlara meyillidir, məsələni həll etmək istəyirlər və xahiş edilirdi ki, atəşkəs rejimi möhkəmlənsin. Mənim isə sözüm o idi ki, biz ciddi danışıqlar aparmalıyıq və o təqdirdə, əlbəttə, atəşkəs rejimi daha da möhkəm olacaqdır. O görüşdən sonra hər iki tərəf razılıq əsasında ayrı-ayrı açıqlamalar verdi. Açıqlamaların əsas mahiyyəti ondan ibarət idi ki, biz görüşdük, yəni, qeyri-formal, qeyri-rəsmi görüş keçirdik, razılaşdıq ki, danışıqlar prosesi sürətləndirilsin və atəşkəs rejimi möhkəmləndirilsin. Çünki bu iki mövqe daim vəhdət təşkil etməlidir. Əks təqdirdə, bu, status-kvonun möhkəmləndirilməsi demək olacaqdır, buna isə biz heç vaxt razı ola bilmərik. Müəyyən müddət ərzində Minsk qrupunun həmsədrləri də ümidlərlə yaşayırdılar və gəlib gedəndə, görüşlər əsnasında ümidlərlə dolu fərziyyələr irəli sürürdülər. Ancaq keçən il Ermənistan baş nazirinin səsləndirdiyi cəfəng fikirlər danışıqlar prosesinə ciddi zərbə vurdu. “Qarabağ Ermənistandır” deməklə nəinki o yalanı bütün dünyaya yaydı və bu da davam edir, eyni zamanda, danışıqlar prosesini mənasız edir. Əgər o hesab edir ki, Qarabağ Ermənistandır, onda nə barədə danışmaq olar? Əgər o, belə hesab edir ki, Qarabağ Ermənistandır, - halbuki bütün dünya bu cəfəng fikri rədd edib, - onda hansı sülh müqaviləsindən söhbət gedə bilər. Yəni, bu, siyasi təxribat idi.

İkinci siyasi təxribat o idi ki, Azərbaycan Ermənistanla yox, Dağlıq Qarabağla danışıqlar aparmalıdır. Bu da formatı dəyişdirmək deməkdir və buna əlbəttə ki, biz heç vaxt razı ola bilmərik. Çünki bu oyuncaq kriminal xunta rejimi ilə heç bir təmaslarımız ola bilməz. Eyni zamanda, Minsk qrupunun həmsədrləri də buna əlbəttə ki, heç vaxt razı ola bilməzdilər. Faktiki olaraq bu açıqlamalar onu deməyə əsas verir ki, Ermənistan danışıqlardan çıxıb, biz yox, Ermənistan. Belə olan halda, biz duraq deyək ki, gəlin danışıqlara başlayaq, yaxud da davam edək, bu, sadəcə, məsuliyyətsizlik olar. Özümüz-özümüzü aldatmamalıyıq, xalqımızı aldatmamalıyıq. Danışıqlar getmir və bu, pandemiyaya görə baş vermir. İndi baxın, onların digər addımlarına. Ermənistan tərəfindən qanunsuz məskunlaşdırma aparılır. Bu, bütün beynəlxalq konvensiyalara ziddir. Onların ağlı çatmır, təcrübəsi, bilikləri yoxdur – onlar bunu nümayişkaranə göstərirlər. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir, bu, cinayətdir. İşğal edilmiş torpaqlara haradansa insan gətirib qanunsuz məskunlaşdırmaq cinayətdir. Bunu Paşinyan rejimi şüurlu şəkildə edir. Bu, təxribatdır, bizi təxribata çəkirlər. İnternetdə göstərirlər ki, Livandan hansısa erməni ailəsi gəlibdir, orada hansısa iş görür. Ondan başqa, bizim qədim tarixi şəhərimiz Şuşada o qondarma rejimin qondarma, dırnaqarası rəhbərinin guya andiçmə mərasimini keçirirlər. Bu, növbəti təxribatdır. Bu, bizə qarşı açıq təhqirdir. Onlar hesab edirlər ki, biz buna dözəcəyik? Bunu, bu təxribatı kim edir? Onlar edir. Biz heç bir təxribat etmirik. Biz öz mövqeyimizdə dayanmışıq.

**- Cənab Prezident, iyul ayında törədilən bu təxribat zamanı və ondan sonrakı dövrdə yerli və xarici mətbuatda Rusiya və Serbiyadan Ermənistana silah göndərilməsi barədə məlumatlar yayıldı. Bu məsələ ilə bağlı bir daha Sizin münasibətinizi öyrənmək istərdik.**

- Birincisi, bir daha demək istəyirəm ki, Ermənistan bizim üçün daim təhlükə mənbəyidir. Ona görə Ermənistanla əlaqədar olan bütün hadisələri biz izləməliyik və bilməliyik. Sual yarana bilər, biz haradan bilmişik ki, Serbiyadan və Rusiyadan onlara silahlar göndərildi. Xüsusilə Serbiyadan göndərildi. Bunu biz, əlbəttə ki, etibarlı mənbələrdən öyrənmişik. O ölkələrə bu məsələ ilə bağlı diplomatik kanallarla siqnallar göndərildi. Eyni zamanda, hər iki ölkənin prezidentləri ilə də mənim telefon söhbətim oldu və mən narahatlığımı ifadə etdim. Onu bildirdim ki, Azərbaycan cəmiyyətində bu, bir çox suallar doğurur. Xüsusilə bu yüklərin daşınmasının intensiv xarakter alması, eyni zamanda, toqquşmaların dayandırılmasından dərhal sonra baş verməsi və iyul ayından sentyabr ayına qədər davam etməsi. Ona görə məsuliyyətli ölkə kimi mən hesab etdim ki, bu məsələni mütləq aydınlaşdırmalıyam.

Əlbəttə ki, bu, bizi çox narahat edir. Çünki Ermənistan Azərbaycana qarşı hərbi təcavüz edib. Ermənistan terrorizmə sponsorluq edən ölkədir. Silahların göndərilməsinin intensiv xarakter alması əlbəttə ki, bizi ciddi narahat edir. Çünki bu silahlar bizə qarşı istifadə olunur. Bu silahlarla bizim uşaqlarımız, insanlarımız vurulur, həlak olur. Ona görə bu məsələ, hər bir başqa məsələ kimi, diqqət mərkəzindədir.

Söz düşmüşkən onu da bildirməliyəm ki, mən bu hadisələrdə Gürcüstan hökumətinin fəaliyyətini yüksək qiymətləndirmək istəyirəm. Bilirsiniz ki, Gürcüstan öz ərazisindən Ermənistana silahların daşınmasına imkan vermədi. Məhz buna görə Xəzəryanı ölkələrin əraziləri və hava sahələri vasitəsilə yük təyyarələri Ermənistana silahlar daşıyır. Gürcüstan özünü çox etibarlı tərəfdaş kimi apardı. Ona görə mən Gürcüstan hökumətinə təşəkkürümü bildirirəm. Deyə bilərəm ki, Gürcüstan hökumətinin simasında biz etibarlı tərəfdaş və dost görürük. Hökumətlərarası əlaqələr gündən-günə möhkəmlənir. Bir çox önəmli layihələr icra edilir. Bu yaxınlarda bizim Xarici İşlər nazirimiz Gürcüstana rəsmi səfər edəcək. Bu, onun Xarici İşlər naziri kimi Gürcüstana ilk səfəri olacaq. Bu gün Gürcüstan və Azərbaycan arasındakı əlaqələr və inkişaf edən əməkdaşlıq hər iki ölkənin maraqlarına xidmət edir.

Ancaq o da həqiqətdir ki, Ermənistan və Gürcüstanda yaşayan ermənilər, eyni zamanda, gürcü familiyaları altında gizlənən etnik ermənilər hər vəchlə çalışırlar ki, Gürcüstan-Azərbaycan əlaqələrinə zərbə vursunlar. Gürcüstanda keçən il baş vermiş bəzi təxribat xarakterli hadisələrin mənbəyi də dünya erməniliyidir. Onların əsas məqsədi Gürcüstan-Azərbaycan əlaqələrini pozmaqdır. Amma buna nail olmayacaqlar. Azərbaycan hər zaman Gürcüstanın yanında olub. Mən indi bu tarixi faktları sadalamaq istəmirəm. Ancaq Azərbaycan hər zaman Gürcüstanda inkişafın, rifahın, sabitliyin tərəfdarı olubdur.

Eyni zamanda, əminəm, gürcü xalqı unutmayıb ki, Abxaziyada gedən müharibədə erməni Baqramyan batalyonu hansı vəhşilikləri törətmişdir, kimin tərəfindən vuruşub və bu gün kimin tərəfindədir? Abxaziyada yaşayan və hakimiyyətin artıq böyük hissəsini zəbt etmiş ermənilər. Azərbaycan isə bütün dövrlərdə Gürcüstanın yanında olub. Bütün beynəlxalq təşkilatlarda Gürcüstanın ərazi bütövlüyü ilə əlaqədar birmənalı mövqe göstərib və göstərəcəkdir.

**- Cənab Prezident, Siz “Qarabağ” yatağının dayaq blokunun dənizə yola salınması mərasimində qeyd etmişdiniz ki, “necə ki, bu gün biz vaxtilə tərk edilmiş “Qarabağ” yatağına qayıdırıq, eyni qaydada biz doğma Qarabağ torpağımıza da qayıdacağıq”. Əminik ki, o gün uzaqda deyil.**

-Bəli, biz mütləq öz torpaqlarımıza qayıdacağıq. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır. 1990-cı illərin əvvəllərində, o vaxt Azərbaycanda hakimiyyətdə olmuş insanların xəyanəti, satqınlığı nəticəsində biz Dağlıq Qarabağı müvəqqəti olaraq itirdik. Mən bugünkü müsahibədə müstəqilliyə qədər bəzi məqamları dilə gətirdim ki, Azərbaycan ictimaiyyəti bu hadisələri unutmasın, gənc nəsil də bunu bilsin. Dağlıq Qarabağ bizim qədim, tarixi torpağımızdır və biz mütləq o torpaqlara qayıdacağıq. Dağıdılmış bütün tarixi abidələri, evləri bərpa edəcəyik. Küçələrə Azərbaycan adlarını verəcəyik, adları dəyişdirilmiş kəndlərə öz əsl adlarını qaytaracağıq. Biz mütləq bunu edəcəyik. Çünki haqq-ədalət bizim tərəfimizdədir. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verən deyilik. Bu gün mövcud olan Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. Bu haqda kifayət qədər tarixi sənədlər var. İkinci erməni dövlətinin yaradılmasına biz heç vaxt imkan verməyəcəyik. **Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!**

# Uşaqların təlim-tərbiyəsi Heydər Əliyev Fondunun fəaliyyətinin əsas istiqamətlərindən biridir



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva sentyabrın 22-də Bakının Xəzər rayonunun Şağan qəsəbəsində yerləşən 212 saylı uşaq bağçasının yeni binasının açılışında iştirak edib.

Birinci vitse-prezident Mehriban Əliyevaya yeni tikilən bina barədə məlumat verilib.

Bildirilib ki, 212 saylı uşaq bağçasının yerləşdiyi bina 1940-cı ildən fəaliyyət göstərib. 2019-cu ilin sonlarından 2020-ci ilin avqustunadək Heydər Əliyev Fondu tərəfindən ərazidə uşaq bağçası üçün yeni binanın inşası həyata keçirilib.

Qeyd edək ki, Azərbaycanda bütün sahələrdə olduğu kimi, uşaqların sosial müdafiəsinin gücləndirilməsinə, onların sağlam və xoşbəxt böyümələrinə diqqət və qayğı göstərilir. Ölkəmizdə müasir körpələr evi-uşaq bağçalarının istifadəyə verilməsi bunun əyani təsdiqidir. Yeni uşaq tərbiyə müəssisələrinin inşasına, eləcə də mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulmasına Heydər Əliyev Fondu xüsusi töhfələr verir. Heydər Əliyev Fondunun “Məktəbəqədər təhsil müəssisələrinin inkişafı” proqramı bir daha sübut edir ki, uşaqların təlim-tərbiyəsi Fondun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir.

* * * *

Sentyabrın 22-də Bakının Suraxanı rayonunun Bülbülə qəsəbəsindəki Gülarə Əliyeva adına 3 nömrəli Uşaq İncəsənət Məktəbinin yeni binası istifadəyə verilib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tədbirdə iştirak edib.

Məktəb 1935-ci ildə musiqi cəmiyyətinin nəzdində yaradılıb, 1940-cı ildən 5 nömrəli Uşaq Musiqi Məktəbi kimi, 1988-ci ildən isə 3 nömrəli Uşaq İncəsənət Məktəbi kimi fəaliyyət göstərməyə başlayıb.

Bildirilib ki, məktəbin ikimərtəbəli binası qəzalı vəziyyətdə olduğundan Heydər Əliyev Fondu tərəfindən yeni bina inşa edilib.

İndiyədək məktəbin 35-dən çox şagirdi beynəlxalq müsabiqələr üzrə laureat adına layiq görülüb, 70-ə yaxın şagird isə respublika müsabiqələrində yüksək yerlər tutub. Gülarə Əliyeva adına 3 nömrəli Uşaq İncəsənət Məktəbinin bir sıra tanınmış məzunları da var.

# Xarici dövlətlərdə təhsillə bağlı qərarda dəyişiklik edilib

Nazirlər Kabineti “Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) Qaydaları”nda dəyişiklik edib. Baş Nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.

# Bərpa olunan enerji mənbələri sahəsinin investisiya cəlbediciliyini artırmaq üçün tədbirlər görüləcək



Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə yaradılan Energetika Nazirliyi yanında Bərpa olunan Enerji Mənbələri Dövlət Agentliyi bu sahənin investisiya cəlbediciliyini artırmaq üçün tədbirlər görəcək.

Agentlik Azərbaycanda bərpa olunan enerji mənbələri və onlardan səmərəli istifadə sahəsində fəaliyyətin təşkilini və tənzimlənməsini təmin etməklə dövlət siyasətinin həyata keçirilməsində iştirak edəcək. Agentlik bu sahənin inkişafı və bərpa olunan enerji mənbələri potensialından səmərəli istifadənin təmin edilməsi, eləcə də investisiya cəlbediciliyini artırmaq üçün tədbirlər görəcək.

Agentliyin vəzifələrinə Azərbaycanın ayrı-ayrı regionları üzrə bərpa olunan enerji mənbələrinin potensialını və onlardan istifadə üçün əsas istiqamətləri müəyyənləşdirmək, müvafiq sahədə məlumatların toplanılmasını, emalını, saxlanılmasını və paylaşılmasını təmin edən bərpaolunan enerji mənbələrinə dair elektron məlumat sistemini yaratmaq, bərpa olunan enerji mənbələri üzrə ölçmə müşahidə avadanlığının quraşdırılmasını və istismarını təmin etmək, bu sahədə mühəndis-axtarış, kəşfiyyat, layihələndirmə işlərinin aparılmasını, perspektivli layihələrin texniki-iqtisadi əsaslandırılmasının hazırlanmasını təşkil etmək, bərpa olunan enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi və dəstəklənməsi üçün müvafiq fondların yaradılması daxildir.

# VƏTƏNDAŞ MARAQLARINA XİDMƏT EDƏN MÜTƏRƏQQİ SOSİAL MÜDAFİƏ SİSTEMİ

## *İlham ƏLİYEV: «Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır»*

**(əvvəli ötən sayımızda)**

### *Mütərəqqi sosial siyasətin bəzi nümunələri*

Şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsi daim diqqət mərkəzindədir. Azərbaycan MDB-də yeganə dövlətdir ki, burada sosial siyasətin istiqamətlərindən birini şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsi təşkil edir. Sosial müdafinən bu aspekti də spesfik yanaşma tələb edir. Çünki şəhid ailələri və müharibə əlilləri ən yüksək sosial qayğıya layiqdirlər. İyul ayında Ermənistanın Tovuz rayonu istiqamətində törətdiyi təxribatın qarşısının alınması zamanı qəhrəmancasına şəhid olan hərbçilərin sosial qayğılarının ilk gündən diqqət mərkəzində saxlanılması göstərdi ki, şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biridir.

2019-cu ildən başlanan yeni sosial paketlər çərçivəsində bu kateqoriyadan olan vətəndaşlar üçün sosial ödənişlərin də ciddi şəkildə artırılması təmin edilib. 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının vərəsələrinin 11 min manat birdəfəlik ödəmə ilə təminatı proqramı da 100 faizə yaxın icra olunub.

**Şəhid ailələri və müharibə əlillərinin mənzillə təminat proqramı da ildən-ilə gücləndirilir. 2018-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 ədəd, 2019-cu ildə isə bundan 50 faiz çox olmaqla 934 mənzil və fərdi ev verilib. Dövlət başçısının tapşırığına əsasən, 2020-ci ildə bu sahədə rekord göstərici kimi, azı 1500 mənzil və fərdi evin şəhid ailələri və müharibə əlillərinə verilməsi nəzərdə tutulub. Onlardan artıq 430 mənzil təqdim edilib.**

2019-cu ilin avqust ayında Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində Prezident İlham Əliyev şəhid ailələrinin, müharibə əlillərinin problemlərinin daim diqqət mərkəzində olduğunu qeyd edərək bildirib ki, son illər ərzində bu istiqamətdə çox böyük işlər görülüb. Ümumiyyətlə, şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı sahəsində rekord göstəricilərə nail olunması hədəflənib. “Təkcə onu demək kifayətdir ki, 8 mindən çox şəhid ailəsi, müharibə əlili mənzillərlə təmin edilib və 7 minə yaxın avtomobil verilibdir. Hesab edirəm ki, biz bu il də bu sahədə rekord göstəriciyə nail olacağıq, buna şübhə yoxdur. Bu il 1500 şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilir və ediləcəkdir. Bütün mənzillər ən yüksək keyfiyyətlə tikilən yeni evlərdədir”, – deyə Prezident İlham Əliyev bildirib.

Dövlətin xüsusi qayğısı nəticəsində müharibə əlilləri və onlara bərabər tutulanların dövlət tərəfindən minik avtomobilləri ilə təminatı tədbirləri də geniş vüsət alır. 2018-ci ildə müharibə əlilləri və onlara bərabər tutulan şəxslərə 265 avtomobil verilibsə, 2019-cu ildə nəzərdə tutulduğundan 3,2 dəfə çox olmaqla 600 avtomobil verilib. Bu il də daha 400 avtomobil verilməsi planlaşdırılıb və artıq 150 avtomobil verilib.

Qaçqın və məcburi köçkünlərə yüksək qayğının diqqət mərkəzində olduğunu qeyd etmək istərdim. Məcburi köçkünlərin olduqca ağır vəziyyətdə yaşadıqları çadır düşərgələrinin ləğvi ideyası da Heydər Əliyevə məxsus idi. Ümummilli lider yaranan iqtisadi imkanları ilk növbədə həm də qaçqın və



məcburi köçkünlərin problemlərinin həllinə yönəldirdi. Dövlət Neft Fondunda toplanan ilk vəsait də qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə yönəldilmişdi.

Cənab İlham Əliyev 2003-cü ilin prezident seçkiləri ərəfəsində ilk görüşünü Biləsuvar rayonu ərazisində məcburi köçkünlər üçün salınmış yeni qəsəbələrdə keçirərkən bir dənə də olsun çadır düşərgəsinin qalmayacağını bəyan etmişdi. 2006-cı ildə Bərdə və Ağcabədi rayonlarındakı 4 çadır düşərgəsinin, 2007-ci ilin dekabrında isə Saatlı və Sabirabad rayonları ərazisindəki 3 çadır düşərgəsinin ləğvi həyata keçirildi, Prezident İlham Əliyevin tapşırığı vaxtından bir il əvvəl yerinə yetirildi.

2004-cü ildə təsdiq edilən “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” ölkəmizdə qaçqın və məcburi köçkünlərə dövlət qayğısının növbəti təzahürü idi. Proqram nəticəsində 2004-cü ildən başlayaraq qaçqın və məcburi köçkünlər üçün respublikamızın müxtəlif bölgələrində yeni yaşayış qəsəbələrinin inşası prosesinə start verildi. Sonrakı illərdə proqrama əlavələr edildi və buna müvafiq olaraq qaçqınların və məcburi köçkünlərin sosial durumunun, yaşayış şəraitinin daha da yaxşılaşdırılması məqsədilə xeyli sayda tədbir həyata keçirildi.

**Azərbaycan Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq indiyədək ölkəmizin müxtəlif ərazilərində qaçqın və məcburi köçkünlər üçün bütün sosial-texniki infrastrukturu ilə birlikdə 100-dən artıq qəsəbə və şəhərcik salınmışdır.**

Qeyd edək ki, Prezident İlham Əliyevin çağırışından sonra özəl sektor da bu işlərə qoşulub. “Paşa Holding” tərəfindən Qobu qəsəbəsində məcburi köçkünlər üçün 3 şəhərcik inşa etdirilib və orada artıq 4 minə yaxın köçkün ailəsi məskunlaşıb: “Eyni zamanda, şəhid ailələri, müharibə əlilləri üçün evlərin tikilməsinin, əlbəttə ki, böyük hissəsini dövlət öz üzərinə götürübdür. Ancaq özəl sektor da artıq fəaldır və bu il “Kapital Bank” 68 mənzili öz vəsaiti hesabına bu kateqoriyadan olan insanlara təqdim edib. Bu, həm ölkəmizdə mövcud olan vətəndaş həmrəyliyinin, dövlət siyasətinin təzahürüdür, dövlət və özəl sektor tərəfindən bu kateqoriyadan olan insanlara qayğının əlamətidir və eyni zamanda, ölkəmizin gücünü göstərir”, – deyə Prezident İlham Əliyev bildirib.

Respublika rəhbəri onu da xüsusi olaraq qeyd etdi ki, burada ilk dəfə olaraq istehsal müəssisəsi yaradılıb ki, bu da kompleksdə yaşayanların işlə təmin edilməsi üçündür. Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə, onların mənzil şəraitinin həllinə heç bir ciddi beynəlxalq yardım olmadan 7 milyard manatdan artıq vəsait xərclənib. Başqa bir məqam ondan ibarətdir ki, Azərbaycan MDB məkanında sosial siyasətin məhz bu istiqamətində tədbirlər həyata keçirən yeganə dövlətdir. Bu da insan amilinin respublikamızda prioritet olduğunu təsdiqləyən mühüm amillərdən biridir.

### *Məşğulluq sosial siyasətin spesifik istiqamətidir*

Respublikamız qonşu ölkələrdən fərqli olaraq əlverişli demoqrafik şəraitə malikdir. Son 20 ildə respublika əhalisi artmış və 10 milyon nəfəri ötmüşdür. Belə demoqrafik inkişaf əmək qabiliyyətli insanların sayının artmasını şərtləndirir, lakin məşğulluqla bağlı əlavə problemlər yaradır. Bu baxımdan məşğulluq, yeni iş yerlərinin yaradılması ölkəmiz üçün daimi prosesdir. Bu problemin həlli ölkəmizin dinamik inkişafının strateji amili kimi qiymətləndirilir və hökumətə bu istiqamətdə tapşırıqlar verir. Eynu zamanda, bu, əmək ehtiyatları artmayan ölkələrdən fərqli olaraq yeni yanaşmalar tələb edir.

Ötən 17 ildə Azərbaycanda həyata keçirilən dövlət proqramlarının nəticəsi olaraq əhalinin məşğulluğunun təmin edilməsi, iş dalınca xarici ölkələrə üz tutmanın qarşısının alınması istiqamətində böyük uğurlar əldə olunub. Xüsusən regionlarda iqtisadiyyatın inkişafını sürətləndirən tədbirlərin, bununla bağlı dövlət dəstəyinin istiqamətlərinin müəyyən edildiyi proqramların təsdiqi ölkəmizin inkişafında yeni bir mərhələnin başlanğıcı olmuş və onun icrası nəticəsində regionlarda çoxsaylı yeni iş yerləri yaradılmışdır. Beş ildən bir qəbul olunan regionların sosial iqtisadi inkişafı dövlət proqramları ölkənin iqtisadi inkişafının mühüm təkanverici amili kimi vətəndaşların sosial rifahının yüksəldilməsində müstəsna rol oynamışdır. Nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin nəticəsi kimi regionlarda tarazlı inkişafla yanaşı, sosial məsələlər də yoluna qoyulmuş, əhalinin məşğulluğu və real gəlirləri artmış, yoxsulluğun səviyyəsi əhəmiyyətli dərəcədə aşağı düşmüşdür. Xüsusilə qeyd etmək istərdim ki,  2003-cü ilin prezident seçkiləri ərəfəsində cənab İlham Əliyevin 600 min yeni iş yerinin yaradılacağı barədə vədi də sistemli şəkildə, ardıcıl olaraq, ilbəil əhalinin məşğuliyyətinin təmin edilməsinə hesablanmışdı və bu vəzifə də uğurla həll edildi.

Bu gün Azərbaycanda yaradılan yeni iş yerlərinin sayı daha böyük rəqəmlərlə ifadə olunur. **Təkcə cari ilin birinci yarısında ölkədə 84,8 min yeni iş yerlərinin açılması da təsdiq edir ki, yeni iş yerlərinin yaradılması ölkəmiz üçün daimi prosesdir. İşsizlik isə təxminən 5 faiz səviyyəsindədir. Ümumilikdə isə bu ilin avqust ayına olan məlumatlara əsasən, Azərbaycanda iqtisadi fəal əhalinin sayı 5 milyon 230 min nəfərdir. Onlardan 4 milyon 881,5 min nəfərini məşğul əhali təşkil edir.**

Respublikanın keyfiyyətli iqtisadi inkişafını, real sektorun quruluşunun şaxələndirilməsini təmin etmək müntəzəm olaraq yeni, yüksək elm və texnoloji tutumlu istehsal sahələrinin yaradılmasını zəruri edir. Lakin rəqəmsal iqtisadiyyatın sürətli inkişafı bir tərəfdən iş yerlərini ixtisar etməklə müşayiət edilirsə, digər tərəfdən artan iqtisadi və sosial tərəqqi əlavə işçi qüvvəsinə ehtiyac yaradır.  Bu baxımdan müasir elmi-texniki inqilabın yaratdığı bu proseslər daim diqqət mərkəzində olmalı, müvafiq qurumlar investisiya siyasətinin formalaşması prosesində məşğulluq amilini nəzərə almalı, mütərəqqi əməktutumlu layihələrə üstünlük verməlidirlər. Dövlət başçısı məşğulluq problemlərindən danışarkən işçilərin ixtisarı məsələsinə çox həssaslıqla yanaşmasını vacib sayır. Təəssüf ki, bir sıra hallarda bu həssas məsələyə lazımi diqqət verilmir.

Bir məsələni də unutmalı deyilik ki, hazırda bütün bəşəriyyət dördüncü sənaye inqilabı dövrünə qədəm qoyur. Bu dövr yuxarıda qeyd edildiyi kimi, mühüm texniki yenilikləri ilə bərabər həm də bir sıra sosial çətinlikləri də ehtiva edir. Bunlardan ən mühümü iş yerlərinin ixtisara salınmasıdır. Ona görə belə bir mərhələdə xüsusən sahibkarlar özlərinin sosial məsuliyyətini dərk etməli, məşğulluq məsələlərinə, baş verə biləcək ixtisarlara diqqətlə yanaşmalı, qanunvericiliyə riayət edilməsini əsas tutmalıdırlar.

**Azərbaycan dövləti tərəfindən aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi ilə yanaşı, onların aktiv əməyə cəlb edilməsinə, məşğulluğunun təmin olunmasına xüsusi diqqət yetirilir.**

Bu baxımdan cəmiyyətimiz üçün nisbətən yeni hesab edilən özünüməşğulluq proqramı barədə qısaca bəhs etmək istərdim. Prezident İlham Əliyevin “Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında” 2016-cı il 7 aprel tarixli sərəncamı ilə həyata keçirilən özünüməşğulluq proqramı dövlət məşğulluq siyasətində keyfiyyətcə yeni bir mərhələ açmaqla işsiz və işaxtaran şəxslərin ailə bizneslərini qurmalarına, əmək potensiallarının reallaşdırılması yolu ilə gəlirlərini artırmalarına, həmçinin kiçik və orta sahibkarlığın inkişafına xidmət edir.

**Sosial sahədə önəmli layihələrdən olan özünüməşğulluq proqramı məhz maddi çətinliyi olan ailələrin özlərinə yaxşı dolanışıq şəraiti yaratmağa imkan verir. Dövlət orqanları, yerli icra orqanları və özəl qurumların bu istiqamətdə layihələr həyata keçirmələri qarşıya məqsəd kimi qoyulub. Özünüməşğulluq vətəndaşlar üçün əlverişli qazanc formasıdır. Belə ki, hər ailənin öz büdcəsi olur, bunun sayəsində də insanlar müəyyən iş qura bilirlər. Əlbəttə, dövlətin köməyi ilə.**

Qeyri-neft sektorunun aparıcı sahəsi olan kənd təsərrüfatında özünüməşğulluğun inkişafı üçün xüsusilə geniş imkanlar var. Çünki bu sahə çoxşaxəlidir. Kənd yerlərində insanlar ailələri ilə birlikdə heyvandarlıqla, quşçuluqla, arıçılıqla, bağçılıqla, tərəvəzçiliklə məşğul olurlar. Dövlət də onlara maddi dəstək verir. Başqa sözlə, özünüməşğulluğa diqqətin artırılması belə insanlara öz fəaliyyətlərini genişləndirmək üçün münasib şərait yaradır. Elə buna görə də Heydər Əliyev Fondu bu istiqamətdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə böyük dəstək verib.

**“Sosial bağlar” layihəsi çərçivəsində sosial cəhətdən həssas qruplar üçün meyvə bağlarının salınması, tərəvəz və bostan məhsulları istehsalı üzrə ailə təsərrüfatlarının, arıçılıq təsərrüfatlarının yaradılması ilə bağlı mühüm işlər görülüb. Bütövlükdə, aztəminatlı ailələrin özünüməşğulluğunun təmin olunmasına və gəlirlərini artırmalarına imkan verən bu layihə belə ailələrin ünvanlı dövlət sosial yardımı proqramından asılılığının aradan qaldırılmasına və kiçik sahibkarlığa çıxış imkanlarına yiyələnmələrinə şərait yaradır. Eyni zamanda, layihə üzrə yeni bağçılıq sahələrinin yaradılması qeyri-neft sektorunun mühüm sahəsi olan kənd təsərrüfatının inkişafına əlavə dəstəkdir.**

Özünüməşğulluq proqramına dəstək məqsədilə Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi ilə əməkdaşlıq da cari il üzrə davam etdiriləcək. Belə ki, 2020-ci ildə daha 250 ailə üçün bağçılıq təsərrüfatlarının yaradılması nəzərdə tutulub.

Cari il ərzində 12 min işsiz şəxsin proqrama cəlb edilməsi planlaşdırılır. Artıq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 4500-dən çox vətəndaş bu proqrama cəlb edilib.

Azərbaycanda özünüməşğulluğu inkişaf etdirmək üçün hərtərəfli şərait və imkan var. Artıq yerli banklar da bu proqramın həyata keçirilməsinə fəal dəstək verməyə başlayıblar. Belə ki, proqramın icrasına dəstək işlərinə ölkədə fəaliyyət göstərən 21 bank qoşulub. Prezident İlham Əliyev “Şadam ki, özünüməşğulluq proqramına bizim banklar da qoşuldu. Bu, çox müsbət haldır. Biz bu proqrama Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə başlamışdıq. İndi həm Dünya Bankı qoşuldu - 100 milyon dollar həcmində, eyni zamanda, bizim banklar qoşuldular”, - deyə bu barədə bildirib.

Onu da qeyd edim ki, 2020-ci ilin yazında Milli Məclisin növbədənkənar sessiyasının iclasında “Məşğulluq haqqında” Qanunun 14 maddəsinə edilən dəyişikliklərdə məşğulluğun əlçatanlığının təmin edilməsi, peşə hazırlığı, ictimai işlərə cəlb olunanların işsiz vətəndaşların daha geniş təbəqəsini əhatə etməsi və digər məqamlar öz əksini tapıb.

**(ardı var)**

**Ziyad SƏMƏDZADƏ,**
**AMEA-nın həqiqi üzvü,**
**Milli Məclisin deputatı**

# AMEA-nın təsisçiləri: İvan Şirokoqorov



İvan İvanoviç Şirokoqorov 1869-cu il iyul ayının 15-də Rusiyanın Vladimir vilayətinin Novoselski kəndində ziyalı ailəsində doğulmuşdur.
O, 1896-cı ildə Estoniyanın Tartu şəhərindəki İmperator Yuryev Universitetinin tibb fakültəsinə daxil olmuşdur. 1900-cü ildə, hələ tələbə ikən, həmin universitetdə professor V.Afanasyevin rəhbərlik etdiyi ümumi patologiya və patoloji anatomiya kafedrasında prorektor köməkçisi vəzifəsinə təyin edilmişdir.
İ.Şirokoqorov 1901-ci ildə təhsil aldığı universitetin tibb fakültəsini müalicə həkimi ixtisası üzrə əla qiymətlərlə bitirmiş, həmin universitetin ümumi patologiya və patoloji anatomiya kafedrasında prorektor köməkçisi vəzifəsində saxlanılmış və əvvəlcə həmin kafedranın icarə üzrə assistenti, 1901-ci ilin oktyabr ayından isə kafedranın ştatlı assistenti vəzifəsini yerinə yetirmişdir.
O, 1907-ci ildə "Arteriyaların adrenalin mənşəli sklerozu" (eksperimental tədqiqatlar) mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.
İ.Şirokoqorov 1908-ci ildə kafedrada privat-dosent vəzifəsinə seçilmiş və bundan sonra patoloji anatomiya fənnindən dərs demişdir. 1915-ci ildən 1918-ci ilin avqust ayına qədər İmperator Yuryev Universitetinin professoru vəzifəsində çalışmışdır. O, 1909-cu ildə Təbiətşünaslıq üzrə əsərlərin redaktoru və Yuryev Universiteti nəzdindəki Piroqov Cəmiyyətinin katibi, 1911-ci ildən Yuryev Universiteti tibb fakültəsinin katibi vəzifəsini yerinə yetirmiş və 1911-ci ildə cüzam xəstəliyini dərindən öyrənmək üçün bakterioloji-laboratoriya təşkil etmişdir.
1913-cü ildə o, Heymburger təqaüdünə layiq görülmüş və İngiltərəyə elmi ezamiyyətə göndərilmiş, Londondakı "İmperial Cancer Researsh Fund" adlı Xərçəng İnstitutunda eksperimental xərçəngin öyrənilməsi ilə məşğul olmuşdur.
Professor İ.Şirokoqorov 1917-ci ildə Tiflisdə Rusiya Qırmızı Xaç Cəmiyyətinin Qafqaz cəbhəsində cəbhə işçilərinin qurultayı tərəfindən Qırmızı Xaç Cəmiyyətinin Baş İdarəsinin tibb sahəsinin rəhbəri təyin edilmişdir. Daha sonra isə o, Rusiya Qırmızı Xaç Cəmiyyəti Tibb İdarəsi üzrə Baş Müvəkkilin müavini və Rusiya Qırmızı Xaç Cəmiyyəti Komitəsinin üzvü seçilmişdir.
Alim 1918-1919-cu illərdə Zaqafqaziya Universitetinin tibb fakültəsinin əvvəl histologiya, sonra isə patoloji anatomiya kafedralarının müdiri vəzifələrində çalışmışdır.
1919-cu ildə professor İ.Şirokoqorov Bakı Universitetinin tibb fakültəsinin dekanı və həmin fakültənin ümumi patologiya və patoloji anatomiya kafedrasının müdiri vəzifələrinə təyin edilmişdir.
Professor İ.Şirokoqorov 1920-ci ilin may ayından 1922-ci ilə qədər Bakı Universitetinin rektoru vəzifəsində çalışmış, sonra yenidən fakültə dekanı vəzifəsinə qaytarılmışdır.
Professor İ.Şirokoqorov 1923-1932-ci illərdə Xalq Səhiyyə Komissarlığı nəzdindəki Elmi-Tibb Şurasının və Təşkilat Komissiyasının sədri olmuşdur. Onun fəal iştirakı ilə Mikrobiologiya İnstitutunun əsası qoyulmuş və İ.Şirokoqorovun özü bu institutun ilk direktoru olmuşdur. O, 1931-ci ildə Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığı Kliniki İnstitutunun elmi rəhbəri təyin edilmiş və ömrünün sonuna qədər bu vəzifədə çalışmışdır.
İ.Şirokoqorov 1934-cü ildə Azərbaycan Xalq Səhiyyə Komissarlığının 402 №-li əmrinə əsasən Xalq Səhiyyə Komissarlığı nəzdində elmi dərəcələrin və elmi adların verilməsi üzrə təşkil edilmiş Təsnifat Komissiyasının sədri, M.Topçubaşov isə sədrin müavini təyin edilmişlər. Professor İ.Şirokoqorov 1936-cı ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.
İ.Şirokoqorov 1944-cü ildə SSRİ Tibb Elmləri Akademiyasının təşkilində yaxından iştirak etmiş və həmin ilin noyabr ayının 14-də SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü seçilmişdir. O, 1945-ci il mart ayının 31-də təşkil edilmiş Azərbaycan SSR Elmlər Akademiyasının təsisçilərindən biri olmuş və akademiyanın həqiqi üzvü seçilmişdir. Alimin elmi istiqamətini, əsasən cüzam, vəba, qarın yatalağı, səpkili yatalaq xəstəliklərinin, eləcə də malyariya və digər infeksion xəstəliklərin patoloji anatomiyasının, həmçinin tibbin mikrobiologiya, epidemiologiya, bakteriologiya sahələrinin öyrənilməsi təşkil etmişdir.
İ.Şirokoqorovun xidmətləri dövlət və xalq tərəfindən yüksək qiymətləndirilmiş və o, "Lenin" ordeni, "Şərəf nişanı" ordeni, çoxsaylı medallarla, Tibb İnstitutunun Fəxri fərmanları ilə təltif edilmişdir.
İ.Şirokoqorov ümumi patologiyaya, patoloji anatomiyaya və epidemiologiyaya həsr olunmuş 100-dən çox elmi əsərin, monoqrafiya, tədris-metodik vəsait, ixtira və tövsiyələrin, həmçinin çoxlu sayda elmi-kütləvi qəzet məqalələrinin müəllifi olmuşdur. Onun rəhbərliyi altında 60-dan çox elmi iş yerinə yetirilmişdir. Elmi iş yerinə yetirənlərdən 15 nəfəri elmlər doktoru, 6 nəfəri professor elmi adına layiq görülmüşdür.
Sovet patoanatomu, SSRİ Tibb EA-nın və Azərbaycan SSR EA-nın akademiki, Azərbaycan SSR əməkdar elm xadimi, Yuryev Universitetinin professoru İ.İ.Şirokoqorov 1946-cı il sentyabr ayının 11-də Bakıda vəfat etmişdir.

## UNEC brendi 10 ölkədə tanındı

Azərbaycan Dövlət İqtisad Universitetinin UNEC brendi daha bir ölkədə tanındı.
Dünya təhsil brendləri arasında öz mövqeyini gücləndirən UNEC Rusiyadan sonra Ukraynada da tanındı. Belə ki, UNEC Ukrayna İntellektual Mülkiyyət İnstitutu tərəfindən Azərbaycan Dövlət İqtisad Universitetinin brendi kimi qorunma altına alındı.



Əhatə dairəsini gündən-günə genişləndirən UNEC Litva, Latviya, Polşa, Slovakiya, Macarıstan, Xorvatiya, Türkiyə, Estoniya, Rusiyadan sonra 10-cu ölkədə tanınmış oldu.

## Alimlər: Beyin hərfləri kor-koranə görə bilər

Kor insanların əksəriyyətində görmə qabiliyyətinin itməsi ya gözdəki, ya da görmə sinirindəki problemlə əlaqədardır. Yəni, beyin qaydasında olur və hansısa siqnalları qəbul edə bilər.
"Nauka i jizn" saytına istinadla xəbər verilir ki, neyrobioloqların fikrincə, elektrod implantların köməyilə görmə nahiyəsini bilavasitə stimullaşdırmaq olar və kor adam da nəyisə görə bilər. Aparılan eksperimentlərdə yanaşma adətən belə olub: hər elektrod vahid piksel rolunu oynaya bilər, beyin qabığına implant edilmiş elektrod-piksellər kompleksi isə hərfin təsvirini yaratmalıdır. Eksperiment zamanı elektrodların hamısı bir yerdə işə salınıb və nəticədə beyin hərfi deyil, aydın olmayan təsviri görüb.
Beylor Universitetindən olan tədqiqatçılar isə məsələyə başqa cür yanaşıblar: elektrodları eyni vaxtda deyil, bir-birinin ardınca işə salıblar və beyinin görmə nahiyəsində sanki hərfin şəkli tədricən çəkilib. Eksperimentdə iştirak edən kor adamlar davamlı elektrod siqnalların köməyilə beyində hiss etdikləri fiquru sensor ekranda barmaqları ilə çəkə biliblər.

# Qiymətli kağızlar bazarı yenidən canlanır: Bazarın yeni iştirakçıları hansı perspektivlər vəd edir?



**Ruslan Babayev,**
**Maliyyə bazarları üzrə ekspert, iqtisad elmləri üzrə fəlsəfə doktoru**

Ölkə iqtisadiyyatlarının inkişafını şərtləndirən vacib elementlərdən biri iqtisadi subyektlərin maliyyə resurslarına çıxışının asanlaşdırılması və resursların diversifikasiya edilməklə istifadəsində səmərəliliyin artırılmasıdır. Bu baxımdan kapital resurslarının iqtisadiyyatın müxtəlif sahələrində effektiv istifadəsi iqtisadi artımı şərtləndirən əsas amillərdəndir və bu resursların əldə edilməsində qiymətli kağızlar bazarının rolu danılmazdır.
Dünya səviyyəsində maliyyə bazarlarının tərkib hissəsi olan qiymətli kağızlar bazarının həcmi gün keçdikcə artmaqdadır. Hazırda bu bazarlarda ticarət olunan qiymətli kağızların həcmi trilyonlarla ABŞ dolları həcmindədir. Sadəcə ABŞ-ın səhm bazarının ümumi dəyəri 30 trilyon ABŞ dolları, istiqraz bazarının ümumi dəyəri isə 40 trilyon ABŞ dolları həcmindədir. Sual oluna bilər ki, investorları və emitentləri (istiqraz buraxan tərəf) bu bazarlara cəlb edən əsas amillər hansılardır?
Bu növ bazarların investorlar üçün əsas üstünlüklərindən biri likvid bazarlar olmasıdır. Yəni, investisiya etdiyiniz kapital hər hansı əmlaka deyil qiymətli kağıza yatırılır və investor pula ehtiyac duyduqda qiymətli kağızı ən qısa zamanda birjada sata bilir. Bundan əlavə, qiymətli kağız fiziki olaraq amortizasiya olunmur, eyni zamanda, onun saxlanması əlavə xərc tələb etmir. Digər tərəfdən, əlinizdə olan qiymətli kağızı təminat kimi bankdan kredit götürdükdə istifadə edə bilirsiz.
Qiymətli kağız buraxılışının şirkətlərə verdiyi ümumi üstünlüklər isə şirkətlərin ölkə, regional və ya dünya maliyyə bazarlarında tanınması, həmçinin maliyyələşmə imkanlarını genişləndirməklə fəaliyyət səmərəliliyini artırmaqdır.
Qiymətli kağızlar bazarının inkişafında 3-cü tərəf kimi dövlətin rolunu qeyd etmək vacibdir. Dövlət maliyyə bazarlarını inkişaf etdirməklə şəffaflığın və qeyri-neft sektorunun artımına, habelə sahibkarlıq fəaliyyətinin inkişafına münbit şərait yaradır. Bu mənada dünya praktikasında ilkin




kütləvi istiqraz təklif edən şirkətlərə dövlət tərəfindən müəyyən güzəştlər tətbiq olunur.
Ölkəmizdə həyata keçirilən davamlı və dayanıqlı iqtisadi siyasətin təzahürü kimi kapital bazarlarının əhəmiyyətli rolunu göstərmək olar. Belə ki, dövlətin həyata keçirdiyi maliyyə siyasətinin tərkib hissəsi olan qiymətli kağızlar bazarının inkişafı maliyyə alətlərinin müxtəlifliyini və maliyyə bazarlarının dərinliyini təmin etməklə qeyri-neft sektorunun əhatəsini genişləndirir.
Hazırda dövlət və qeyri-dövlət sektorunda fəaliyyət göstərən şirkətlərin qiymətli kağızlar bazarına olan marağı gün keçdikcə artır. Məsələn, səhmləri dövlətə məxsus "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin istiqraz qiymətli kağızlarının ilkin kütləvi təklif üsulu ilə yerləşdirilməsi buna bariz nümunədir.
Qiymətli metalların hasilatı sahəsində qeyri-neft sənayesinin liderlərindən biri olan "AzerGold"un təklif edəcəyi istiqrazlar şirkətin maliyyə mənbələrinin şaxələndirilməsinə və resursların yeni layihələrin icrasına yönəldilməsinə, ölkənin qiymətli kağızlar bazarının inkişafına, eləcə də vətəndaşlara mənfəətli və etibarlı investisiya imkanları yaratmağa xidmət edəcək. Bu da öz növbəsində koronavirus pandemiyasının dünya iqtisadiyyatına mənfi təsirləri fonunda az riskli, yüksək gəlirli qazanc əldə etmək fürsəti verəcək. Üstəlik, vətəndaşların – fiziki və hüquqi şəxslərin "AzerGold" istiqrazları ilə milli iqtisadiyyat və dağ-mədən sənayesinin tərəqqisinə töhfə vermək kimi bir şansı yaranacaq.
İstər institusional (banklar, sığorta şirkətləri, investisiya şirkətləri), istərsə də fərdi investorlar (fiziki şəxslər) ilkin kütləvi təklif olunan bazardan "AzerGold" istiqrazlarını almaqla illik 4% gəlir əldə edəcəklər. İstiqrazların nominal dəyərinin 100 ABŞ dolları, müddətinin 3 illik, həcminin isə 20,000,000 ABŞ dolları olması gözlənilir. İstiqrazların satışı Bakı Fond Birjasında hərrac vasitəsilə həyata keçiriləcək. İnvestorlara faizlərin ödənilməsi il ərzində 4 dəfə olmaqla rüblük nəzərdə tutulur. Sadalanan şərtlər hazırda ölkənin maliyyə bazarı üçün ən əlverişli təkliflərdən hesab olunur.
"AzerGold" QSC-nin istiqrazlarını əldə etməklə investorlar sabit gəlir əldə etmək, müddət sonunda istiqrazların nominal dəyərini geri almaq hüququ əldə edirlər.
Qeyd olunan istiqrazları əldə etməklə investorların bankların ABŞ dolları üzrə depozitlərinin orta faiz dərəcəsindən daha artıq gəlir əldə etmək imkanı vardır. Bununla yanaşı, cəmiyyətin fəaliyyətinin nəticələrinin yüksək mənfəətliliklə müşayiət olunması emissiya edilən istiqrazların daha etibarlı və dayanıqlı olmasına əsas verir.

# В Балаханинском промышленном парке начнут функционировать еще 8 резидентов

Министерство экономики организовало для представителей СМИ инфотур в ОАО «Тамиз шахар», сообщает в среду Trend.
Сначала представители медиа побывали на Балаханинском заводе по сортировке твердых бытовых отходов.
Председатель правления ОАО «Тамиз шахар» Этибар Аббасов отметил, что завод был построен в 2012 году по немецкой технологии. После сортировки отходов они отправляются на повторную обработку. На заводе постоянной работой обеспечены свыше 170 жителей поселка Балаханы. Найденные при сортировке более 1200 различных видов документов в рамках проекта "Poçtap" переданы в ООО «Азерпочт». Собранные с помощью магнитного сепаратора более 600 кг монет потрачено АО «Тамиз шахар» на благотворительные цели.
Также был организован виртуальный тур в музей «От отходов к искусству», находящемся в поселке Гала. В музее, созданном в 2015 году по инициативе Фонда Гейдара Алиева, демонстрируются произведения, созданные почти 180 творческими людьми из 42 стран, участвующих в выставках «От отходов к искусству».
Представители СМИ также ознакомились с Балаханинским полигоном по утилизации твердых бытовых отходов.
Отделяемые от отходов сточные воды фильтруются, становясь техническими, и используются для поливки деревьев на территории полигона.
Было отмечено, что в течение года предприятие способно утилизировать 500 тысяч тонн твердых отходов, 10 тысяч тонн медицинских отходов и выработать 231,5 млн квт/ч электроэнергии. Полученной на заводе в течение года электроэнергией можно обеспечить 100 тысяч семей. В связи с пандемией коронавируса на заводе было утилизировано 1 800 кубометров медицинских отходов. Территория завода регулярно дезинфицируется.
Представители СМИ также ознакомились с Балаханинским промышленным парком, созданным для развития «зеленой экономики» в стране. В настоящее время в парке, созданном в эксплуатацию в 2017 году, 19 резидентов, 11 из которых уже работают. Резиденты вложили в парк свыше 40 миллионов манатов инвестиций. Учитывая интересы предпринимателей, территория парка была расширена до 10,1 га. Здесь создано до 570 постоянных рабочих мест, которые за счет расширения производства и реализации новых проектов планируется довести до 720.
Напомним, что резиденты парка на 10 лет освобождены от налога на прибыль, земельного налога и налога на имущество. Импортируемая техника, технологическое оборудование и устройства на 10 лет освобождены от НДС, и на 7 лет – от пошлины на импорт.
В ближайшее время к деятельности приступят еще 8 резидентов Балаханинского промышленного парка.




# Центробанк Азербайджана совместно с ЕБРР окажет поддержку МСБ



Между Центральным банком Азербайджана (ЦБА) и Европейским банком реконструкции и развития (ЕБРР) подписано рамочное соглашение о проведении своп-операций по кредитованию малых и средних предприятий в Азербайджане в национальной валюте в течение текущего года, сообщили Trend в Центробанке Азербайджана.
По данным ЦБА, в рамках страновой стратегии на 2019-2024 годы, регулирующей сотрудничество между ЕБРР и Азербайджаном, предусмотрены направления сотрудничества ЕБРР с Центральным банком. Наряду с этим, между Центральным банком и ЕБРР было подписано соглашение о намерениях по поддержке малого и среднего предпринимательства в стране, развитию местных рынков капитала, предоставлению дополнительных стимулов по снижению процентных ставок и сотрудничеству в направлении расширения источников предложения на валютном рынке.
По сообщению Центробанка страны, на основе соглашения планируется заключить своп-соглашение с ЕБРР на сумму до 200 миллионов долларов США, в результате чего средства, привлекаемые ЕБРР, будут переданы местным компаниям, особенно относительно небольшим компаниям, столкнувшимся с временными трудностями. Своп-операции планируется проводить не только в период пандемии, но и в последующие периоды.
Отметим, что Азербайджан тесно сотрудничает с Европейским Банком Реконструкции и Развития с 1992 года, и это сотрудничество характеризуется полезной деятельностью в области активной поддержкой реформ в экономическом развитии страны.

# В Азербайджане выросло население, но сократились его номинальные доходы

По предварительным данным, за январь-август 2020 года номинальные доходы населения страны составили 36,8 миллиарда манатов, что отражает рост на 0,1 процента по сравнению с тем же периодом предыдущего года, сообщает Trend со ссылкой на данные Государственного комитета по статистике Азербайджана. На каждого человека страны номинальный доход составил 3 693,3 маната. По данным Госкомстата, цены на потребительском рынке страны в этот период превысили рост доходов населения на 2,8 процентных пункта. После осуществления всех обязательных и добровольных платежей в распоряжении населения остались 33,2 миллиарда манатов, что по сравнению с тем же периодом предыдущего года на 1,4 процента меньше. На каждого человека пришлось 3 328,2 маната и это на 2,2 процента меньше чем в тот же период 2019 года. Отметим, что население Азербайджана с начала года выросло на 33 514 человек или на 0,3 процента, составив на первое августа 10 100 622 человека.

# Это интересно А знаете ли Вы?

**Почему дверные ручки из меди?**



Ты пользуешься медными ручками много раз на дню и ни разу не всплывал вопрос, почему они сделаны чаще всего из меди? Это не связано со стоимостью меди.
Дело в том, что медь более устойчива к бактериям, а так как ручками пользуются много людей, то медь помогает им оставаться свободными от микробов. Так что если у тебя до сих пор нет медной ручки, подумай о ее приобретении.
**Почему в иллюминаторах самолета дырки?**
Если тебе хоть раз приходилось летать на самолете, то ты наверняка заметил/а маленькие отверстия в окне? Обуяла паника? Конечно, это может напугать, потому что ты находишься в воздухе и может показаться, что они следствие воздушного давления или что-то вроде того.
Это вентиляционное отверстие, потому что когда самолет взлетает, то в кабине происходит падение давления, а вентиляционное отверстие помогает



давлению в кабине оставаться на безопасном и комфортном уровне. С помощью вентиляционного отверстия самолет может справиться с перепадом давления.
**Зачем на монетах зазубрины?**
На четвертаках и десятках есть зазубрины по краям, но возможно ты заметил/а, что на пятаках их нет. Это все потому, что монеты раньше отливали с разным весом для отображения истинной ценности монеты.




Чтобы люди не срезали края и не переплавляли монеты в новые, были добавлены зазубрины, так чтобы никто не мошенничал.
**Назначение выпуклостей на клавиатуре**
Если ты сейчас сидишь за компьютером или ноутбуком, то посмотри на клавиатуру и ты заметишь, что на кнопках F и J есть две маленькие выпуклости. Всегда хотелось узнать, для чего они там? Они нужны для удобства пользователей, чтобы они могли вслепую печатать на клавиатуре. Попробуй, и хотя это может занять много времени, прежде чем ты привыкнешь, но пользование клавиатурой покажется тебе намного легче.
**Функциональность тележки для закупок**
Иногда мы заполняем тележку доверху и потом обнаруживаем, что некоторые



самые хрупкие помялись.
Решение этой проблемы есть, потяни за петельку на тележке и откроется специальная секция. Немногие люди знают о ней. Она предназначена для хрупких продуктов вроде яиц или ягод.
**Истинное предназначение кусочка ткани**



Иногда при покупке одежды мы получаем маленький пакетик с кусочком ткани внутри. Многие из нас думают, что это для починки штанов или футболки, если они порвутся, то можно использовать в качестве заплатки.
К сожалению, это неправда. Дополнительную ткань тебе дают, чтобы протестировать материал при стирке.



# Генсек ООН поставил цель закончить все войны за 100 дней



Генеральный секретарь ООН Антониу Гутерреш считает, что международное сообщество должно поставить цель закончить все войны за 100 дней. Об этом сообщает РИА Новости.
Глава международной организации напомнил, что призывал положить конец вооруженным конфликтам из-за разразившейся пандемии коронавируса. Теперь Гутерреш заметил, что осталось всего 100 дней до конца 2020 года, в связи с чем актуальна другая цель. «Сегодня я призываю международное сообщество приложить новые усилия, чтобы воплотить этот призыв [добиться прекращения огня по всему миру] в жизнь к концу этого года», — сказал португалец.
Ранее Гутерреш заявил, что вспышка коронавируса выходит из-под контроля. По его словам, на данный момент пандемия является «угрозой номер один» для глобальной безопасности, и скоро человечество преодолеет рубеж в миллион умерших в результате распространения вируса. Генсек подчеркнул, что, хотя многие и возлагают надежды на вакцину, от пандемии все же нет панацеи.

# Определен новый эффективный способ победить коронавирус

Ученые Калифорнийского университета в Сан-Диего определили, что SARS-CoV-2 не может заражать клетки без молекулы гепарансульфата, которая находится на поверхности клеток легких и действует, как рецептор для проникновения коронавируса внутрь.
О новом способе победить патоген сообщается в статье, опубликованной в журнале Cell.
Известно, что SARS-CoV-2 обладает белком-«шипом» (S-белок), который связывается с клеточным рецептором ACE2. Гепарансульфат действует как корецептор, то есть вирус должен дополнительно связаться с этой молекулой, чтобы заразить клетку.
Ученые показали, что способность вируса к заражению снижается на 80-90 процентов, если с помощью ферментов удалить гепарансульфат.
Кроме того, гепарин можно эффективно использовать в качестве приманки, чтобы связать коронавирус вдали от клеток человека.
По словам исследователей, полученные результаты помогут разработать новые препараты для борьбы с коронавирусом.
Однако для этого необходимо еще протестировать гепарин и ингибиторы гепарансульфата на животных моделях, зараженных SARS-CoV-2.

# "Alınan mallar geri qaytarılmır" qaydası ilə işləyənlər cərimələnəcək



Son zamanlar bir sıra ticarət obyektlərində "Alınan mallar geri qaytarılmır" kimi lövhələrin asılması halları müşahidə olunur. İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti bildirib ki, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanuna əsasən, istehlakçı aldığı malda zəmanət müddəti ərzində qüsur, saxtalaşdırma aşkar edərsə, satıcıdan aşağıdakılardan birini tələb edə bilər:

• lazımi keyfiyyətli mala dəyişdirməyi;
• satış qiymətini uyğun məbləğdə azaltmağı;
• malın qüsurlarının icraçının (satıcının, istehsalçının) hesabına aradan qaldırılmasını və ya qüsurların aradan qaldırılması üçün istehlakçının və ya üçüncü şəxslərin çəkdiyi xərclərin əvəzinin ödənilməsini;
• malın, həmin mala uyğun digər modelli (markalı, tipli və i. a.) mal ilə, dəyəri yenidən hesablanma şərti ilə əvəz edilməsini;
• müqavilənin ləğv edilməsini və çəkdiyi zərərin ödənilməsini.

Satıcı istehlakçının sadalanan tələblərindən birini yerinə yetirməyə borcludur.

Satıcı (icraçı) istehlakçını maraqlandıran malın (xidmətin) qiyməti, istehlak xassələri (ərzaq malları barəsində isə, həm də tərkibi, yararlılıq müddəti, kaloriliyi, sağlamlıq üçün zərərli maddələrin normativ sənədlərin tələbləri ilə müqayisəli miqdarı), əldə edilməsi şərtləri, təminat öhdəlikləri və iddiaların irəli sürülməsi, malın işlədilməsi, saxlanılması və təhlükəsiz istifadəsi üsulları və qaydaları barədə istehlakçıya zəruri və düzgün məlumat verməlidir. Satılan mal barədə yanlış və ya kifayət qədər dolğun olmayan məlumatın verilməsi, istehlakçının lazımi xassələrə malik olmayan malı (işi, xidməti) almasına səbəb olubsa, bu zaman onun müqaviləni ləğv etmək və itkilərin ödənilməsini tələb etmək hüququ var.

Lazımi keyfiyyətli qeyri-ərzaq malı (qanunvericiliklə qaytarılması və dəyişdirilməsi qadağan olunan mallar – qızıl və qızıl məmulatları, şəxsi gigiyena əşyaları, uşaq oyuncaqları, parfümer-kosmetika malları, kişi, qadın və uşaq çimərlik paltarları, bağça yaşlı və yeni doğulan uşaqlar üçün alt paltarları və s. istisna olmaqla) öz formasına, ölçüsünə, rənginə görə istehlakçıya yaramırsa və ya digər səbəblərə görə təyinatı üzrə istifadə oluna bilməzsə, istehlakçı həmin malı alınma günü sayılmamaq şərtilə, 14 gün ərzində digər lazımi keyfiyyətli uyğun mala dəyişdirmək hüququna malikdir. Bu zaman mal əmtəə görünüşü, istehlak xassələri, plombu, yarlığı alındığı kimi saxlanılmaqla, həmçinin kassa çeki və ya mal alınan zaman verilən digər sənədlərlə birlikdə təqdim olunmalıdır.

Mal dəyişdirilən vaxt satışda uyğun mal yoxdursa, istehlakçı dəyəri yenidən hesablamaqla istənilən başqa malı almaq, qaytarılan malın dəyəri məbləğində pulu geri götürmək və ya satışa uyğun mal gələn kimi onu dəyişdirmək hüququna malikdir.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti mağaza sahiblərini qanunvericiliyin tələblərinə əməl etməyə, istehlakçıların qanunvericiliklə qorunan hüquqlarını pozmamağa çağırır, belə hallar müəyyən ediləcəyi təqdirdə onlara qarşı qanunvericiliyə uyğun olaraq ciddi məsuliyyət tədbirlərinin həyata keçiriləcəyini bildirir.

İnzibati Xətalar Məcəlləsinin 444.2-ci maddəsinə əsasən satılmış malların dəyişdirilməsi və ya geri qaytarılması qaydalarının pozulmasına görə 600 manatdan 900 manatadək məbləğdə cərimə nəzərdə tutulur.

# Fərdi sahibkarların sosial sığorta ödənişləri

Mövcud qanunvericiliyə əsasən, ölkəmizdə fərdi sahibkarların sosial sığorta ödənişlərinin məbləği həm sektorlar, həm də ərazilər üzrə dəyişir və bu səbəbdən müəyyən suallar yaranır. Mövzunu iqtisadçı ekspert İsmayıl Bağırov şərh edir.



"Sosial sığorta haqqında" Qanunun 14.5.1-ci maddəsinə əsasən, muzdlu işə aid olmayan fəaliyyətdən gəlir əldə edən sığortaolunanlar üzrə məcburi dövlət sosial sığorta haqqı aşağıdakı dərəcələrlə ödənilir:

• sahibkarlıq fəaliyyəti üzrə – minimum aylıq əməkhaqqının tikinti və ticarət sahələrində 25 faizi, digər sahələrdə 15 faizi miqdarının;
• Bakı şəhərində 100 faizi;
• Sumqayıt və Gəncə şəhərlərində 90 faizi;
• digər şəhərlərdə 80 faizi;
• rayon inzibati ərazi vahidlərinin inzibati mərkəzi olan inzibati ərazi vahidlərində və qəsəbələrdə 60 faizi;
• kənd yerlərində 50 faizi miqdarında məcburi dövlət sosial sığorta haqqı ödəyirlər.

Qeyd edək ki, əmək müqaviləsi ilə işçi qüvvəsindən istifadə edən, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər qeyd olunan dərəcələrlə məcburi dövlət sosial sığorta haqqı ödəməklə yanaşı, işçiləri üçün əməyin ödənişi fondundan məcburi dövlət sosial sığorta haqqı ödəməlidir.

# Əmək müqaviləsinə xitam verilmiş şəxslər üçün sığorta stajı 3 ildən 1 ilədək azaldıldı

Prezident İlham Əliyev "İşsizlikdən sığorta haqqında" qanuna dəyişiklikləri təsdiqləyib. Ümumilikdə qanunun 9 maddəsinə 20 dəyişiklik olunub.



Sənəd işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsi və işsizlikdən sığorta sisteminin əhatə dairəsinin genişləndirilməsi məqsədi ilə hazırlanıb.

Sənədə əsasən, dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi, işçilərin sayı və ya ştatların ixtisar edilməsi əsasında əmək müqaviləsinə xitam verilmiş şəxslər üçün sığorta stajı 3 ildən 1 ilədək azaldılıb.

Sığorta ödənişinin əhatə dairəsinin genişləndirilməsi ilə əlaqədar olaraq, ölkədə müddətli əmək müqaviləsinin müddətinin bitməsi əsasında əmək müqaviləsinə xitam verilmiş şəxslər üçün də sığorta ödənişi hüququ yaradılıb. Sənədə görə, sığorta ödənişinin təyin edilməsi üçün şəxsin müddətli əmək müqaviləsi üzrə ən azı 3 il fasiləsiz iş stajı olmalı, onun əmək müqaviləsinə Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin b) bəndinə uyğun olaraq xitam verilməlidir.

Sığorta ödənişi şəxsin işsiz kimi qeydiyyata alındığı tarixdən 3 ay keçdikdən sonra ödəniləcək, bir şərtlə ki, bu müddət ərzində şəxs ona təklif edilmiş münasib işlərdən imtina edən şəxs olmasın. Sığorta ödənişi 3 ay müddətinə təyin ediləcək, minimum məbləğdə həyata keçiriləcək və təkrar sığorta ödənişinə yol verilməyəcək. Qeyd edilən mexanizm ilə il ərzində 35-40 minədək işsiz şəxsin sığorta ödənişinə cəlb edilməsi mümkün olacaq. Eyni zamanda, sənədlə işsizlikdən sığorta ödənişinin elektron təyinatı mexanizmi yaradılır.

# Azərbaycanda təhsil müddəti də pensiya stajı sayılacaq



Azərbaycanda artıq təhsil müddəti də ümumi pensiya stajına daxil ediləcək.

Bunu DSMF-nin əməkdaşı Ayxan Məcidli sosial şəbəkədə keçirdiyi onlayn brifinqdə bildirib.

O, qeyd edib ki, 2006-cı ilə kimi vətəndaşların pensiya təminatı haqqında əvvəlki qanun qüvvədə idi: "Həmin ilə qədər kim pensiyaya çıxıbsa, onların təhsil müddəti ümumi stajda nəzərə alınıb. Lakin 2006-cı ildən sonra hazırkı əmək pensiyaları haqqında yeni qanun qüvvəyə mindi. Həmin qanunun 21-ci maddəsinə əsasən, burada sığorta stajı müddəti öz əksini tapıb". Lakin son illər nazirlik tərəfindən islahatlar həyata keçirilir. Təhsil müddəti ilə bağlı xeyli müraciətlər olduğuna görə, yenə təhsil müddəti əmək pensiyası stajına daxil edilib".

O, qeyd edib ki, əgər 5-6 il əvvəl vətəndaşlar pensiya üçün müraciət edərkən, onların təhsil müddəti nəzərə alınmayıbsa, yenidən DSMF-yə müraciət edib həmin müddəti pensiya stajına əlavə etdirə bilərlər.

Təhsil müddətinin pensiya kapitalına təsirinə gəlincə isə, DSMF rəsmisi bildirib ki, 2006-cı ilə kimi pensiya üçün əsas staj nəzərə alınırdısa, 2006-cı ildən sonra fərdi hesabda toplanan vəsait nəzərə alınır.

# Azərbaycan və Macarıstan arasında səhiyyə sənayesi sahəsində Saziş təsdiqlənib



Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Macarıstanın İnnovasiya və Texnologiya Nazirliyi arasında səhiyyə sənayesi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Fərman imzalayıb.

Fərmanla "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Macarıstanın İnnovasiya və Texnologiya Nazirliyi arasında səhiyyə sənayesi sahəsində əməkdaşlıq haqqında" 2020-ci il iyulun 17-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilib.

# Koronavirusa yoluxanların sayı 31 milyonu keçdi

Dünyada koronavirusa yoluxanların sayı 31 milyon 28 min 757 nəfərə çatıb.

COVID-19-dan ölənlərin sayı 960 min nəfər, sağalanların sayı isə 21 milyon 254 min 847 nəfərə çatıb.

Virusa ən çox yoluxma ABŞ, Hindistan və Braziliyada qeydə alınıb.




# Bakıda Qazaxıstanın Ticarət Evi açılacaq

Bakıda Qazaxıstanın Ticarət Evi qeydiyyatdan keçib. Bunu "Kazinform"a açıqlamasında Ticarət Evinin baş direktoru Rüfət Rzayev deyib.

Onun sözlərinə görə, ilkin mərhələdə Azərbaycan bazarında Qazaxıstanın qida və kənd təsərrüfatı məhsulları, istehlak malları, daha sonra isə yüngül və tekstil sənaye məhsulları nümayiş etdiriləcək: "Qazaxıstan Ticarət Evi mal və xidmətlərin təqdimatlarını, sərgiləri, işgüzar görüşləri təşkil edərək, iki ölkənin işgüzar dairələri üçün dialoq platforması rolunu oynayacaq".

Ticarət Evinin baş direktoru əlavə edib ki, ölkələr arasında birbaşa uçuşlar bərpa olunduqdan sonra Qazaxıstanın məhsul tədarükçülərinin Bakıya gəlməsi və yerli tərəfdaşlar üçün malların sərgisi təşkil olunacaq.

# Cəbrayılov Əhmədiyyə Mikayıl oğlu (1920-1994)



Ə.M.Cəbrayılov 1920-ci ildə Şəki rayonunun Oxud kəndində anadan olub. 1938-ci ildə Şəki Kənd Təsərrüfatı Texnikumunu zootexnik və aqronomluq ixtisasları üzrə bitirir. Müharibə başlayanda könüllü olaraq cəbhəyə getmək istəyir, lakin onu Novınnomıskadakı aviasiya məktəbinə oxumağa göndərirlər.

1942-ci ilin aprel ayında məktəbi bitirən Əhmədiyyə Donbas rayonunda 150-ci alaya kiçik siyasi rəhbər götürülür.

1942-ci ilin yayında 350-ci alay İzyum rayonunda, Şimali Donets çayının sahilindəki döyüşlərdə mühasirəyə düşür. Əhmədiyyə Cəbrayılov həmin döyüşdə ağır yaralanır, huşunu itirən Əhmədiyyə almanlara əsir düşür. Ukrayna, Polşa, Almaniyadakı faşist həbs düşərgələrində, o cümlədən, ən dəhşətli konslagerdə - Dahauda saxlanılır.

Sonralar Elzas-Lotaringiyadan hərbi əsirləri daşıyan eşalonla Əhmədiyyə Fransanın cənubuna, Podezə göndərilir. Podezdəki hərbi əsir düşərgəsindən qaçmağa cəhd göstərən Əhmədiyyəni tutan almanlar onu qəddarcasına döyür, işgəncə verirlər. Sinəsinə 4167 nömrəsi yazılmış yarımcan Əhmədiyyəni hər gün məcburi işə çıxarırdılar.

Növbəti dəfə amansızcasına döyülən, çoxlu qan itirən Əhmədiyyənin öldüyünü zənn edən almanlar onu dəfn etmək üçün əsir düşərgəsinin xidmətçisi Madam Jannanı çağırırlar. Xidmətçi Janna əsirin ölmədiyini anlasa da, dəfn mərasimini təqlid edir və gecədən xeyli keçmiş yerli vətənpərvərlərin köməyilə yarımcan Əhmədiyyəni tabutdan çıxarıb öz evinin zirzəmisində gizlədir.

Müalicə olunub ayağa qalxan Əhmədiyyə günahsız insanlar adına faşistlərdən alacağı qisas hissi ilə alışıb yanır. O, partizanların yanına gedir və qəti, cəsarətli əməliyyatlara başlayır. Dəmiryol xətlərini, körpüləri partladır, ərzaq daşıyan eşalonları, faşist anbarlarını, alman tanklarını yandırır. Gizli antifaşist hərəkatında onun "Xarqo", "Rjus Armed", "Frajı", "Kuraje" və s. kimi ləqəbləri vardı.

Bu cəsur azərbaycanlının igidliyi haqqındakı xəbər Fransa Müqavimət Hərəkatının lideri, şanlı general Şarl de Qollacan gedib çatır. O, Əhmədiyyə ilə şəxsən görüşmək, tanış olmaq istədiyini bildirir.

Görüş zamanı general ona bir sıra məsuliyyətli tapşırıqlar verir. Ə.Cəbrayılov onların hamısını diqqətlə hazırlayıb, dəqiqliklə həyata keçirir.

Hitlerçi işğalçı hakimiyyət "Xarqo"nun başına 70 min alman markası təyin edir, onu tutana iki təzə avtomobil verəcəyini vəd edir.

1944-cü ilin avqustunda Ə.Cəbrayılov Parisin azad olunması münasibəti ilə təşkil edilmiş banketdə fəxri qonaq kimi iştirak edir (bunu fotoşəkillər də təsdiq edir).

Ə.Cəbrayılov 1947-ci ildə general Şarl de Qollun köməkliyi ilə SSRİ-yə qayıdır. Moskvada siyasi yoxlama "süzgəcindən" keçərkən fransız hökumətinin bu igid azərbaycanlı balasına verdiyi mükafatların hamısı onun əlindən alınır.

Azərbaycana qayıdan Ə.Cəbrayılov ailə qurur, ali təhsil alır. Kolxozda baş aqronom kimi çalışır.

1966-cı ildə Fransanın prezidenti seçilən Şarl de Qoll SSRİ-yə rəsmi səfərə gəlir. O, SSRİ-yə səfər proqramına Şəkiyə də getməyi, özünün əfsanəvi kəşfiyyatçısı ilə görüşməyi də daxil edir. Ancaq Sovet hökuməti bunu məqsədəuyğun saymır və Ə.Cəbrayılovu şəxsən Moskvaya dəvət etməyə üstünlük verir.

General de Qollun təkidi ilə Əhmədiyyə onun Moskvadakı iqamətgahına gətirilir.

1972, 1975, 1982-ci illərdə Ə.Cəbrayılov özünün keçmiş döyüş yerlərinə, Paris, Rodez, Montaban, Tuluza, Albi, Lion, Dijon, Marsel və b. şəhərlərə baş çəkir (əlbəttə ki, bu səfərə rəsmi Moskvanın izni və dəstəyi ilə gedir) və həmin yerlərdə sağ qalmış antifaşist dostları ilə görüşür.

Parisdə Ə.Cəbrayılovu Fransa Senatının üzvü Jak Düklo qəbul edir və ona görüşə həsr olunmuş xatirə medalını təqdim edir.

Əhmədiyyə Cəbrayılov fransızların dəvəti ilə 1990-cı ilin noyabrında general Şarl de Qollun anadan olmasının 100 illiyi münasibətlə keçirilən tədbirlərdə iştirak etmək üçün Parisə yola düşür. Həmin təntənələrdə ona ayrı-ayrı dövlət başçıları ilə yanaşı oturmaq, görkəmli sərkərdə və dövlət xadiminin məzarı üstünə əklil qoymaq, kürsüdən şanlı general barədə öz xatirələrini bölüşmək imkanı da verilir. Ən maraqlısı budur ki, Fransanın milli qəhrəmanı – soydaşımız Əhmədiyyə küçə ilə gedərkən belə insanlar ona təzim edir, qəhrəmanını qürurla salamlayırdı. Ə.Cəbrayılov müsahibələrində bu barədə ayrıca söz açırdı. Qeyd edək ki, elə həmin il Əhmədiyyə Cəbrayılovun oğlu Mikayıl da Qarabağ müharibəsində qəhrəmancasına həlak oldu!… Şəhidlik zirvəsinə ucaldı.

Əhmədiyyə Cəbrayılov 1994-cü ilin oktyabrında doğma Şəki rayonunda avtomobil qəzasında haqq dünyasına qovuşdu. O, Oxud kənd qəbiristanlığında, oğlu Mikayılın yanında torpağa tapşırıldı.

Ə.Cəbrayılovun vəfatının ildönümündə onun məzarı üstündə Azərbaycan hökumətinin rəsmi sifarişi ilə heykəltaraş M.Salikovun hazırladığı bürünc abidə ucaldıldı. Bu əfsanəvi qəhrəmanın xatirəsini əziz tutan insanlar axın-axın gəlib anım mərasiminə toplaşdılar və həmin mərasimdə Fransanın Azərbaycandakı ilk səfiri Jan Perren çıxış edərək, qəhrəmanın qəbri üstünə tər çiçəklərdən əklil qoydu.

Əhmədiyyə Cəbrayılovun döyüş dostu, Mantaban şəhərində yaşayan Rene Şambar 1998-ci ildə Bakıya səfər edərkən Oxud kənd qəbiristanlığına gedərək, silah dostunun ruhu qarşısında baş əydi və Əhmədiyyənin qəbrinin üstünə payız çiçəkləri düzdü.

Rene Şambar Əhmədiyyə haqqında xatirələrində yazırdı: - «Armed Mişelin qələbələri qeyri-adi idi. O, ən cəsur, ən mərd döyüşçü idi. Əhmədiyyə Müqavimət hərəkatında öz missiyasını çox dəqiq və aydın bilirdi. O, həyatın çətinliklərindən, keçdiyi sınaqlardan, çəkdiyi olmazın əzablardan bir dəfə də olsun gileylənməzdi. O, bənzərsiz insan idi. Bizim nəslin hamısı onun qəhrəmanlığını həmişə xatırlayacaq, qəlbində yaşadacaq. Armed Mişel indi aramızda yoxdursa da, onun ruhu daim bizimlədir. Qoy, bu payız çiçəkləri onun ruhu kimi məzarına ətir saçsın».

Fransanın respublikamızdakı səfiri, digər fransız qonaqlar da hər il payızda Oxuda gəlir, Fransa torpağının faşist vəbasından qurtuluşu uğrunda döyüşmüş igid bir insanın qəbri üstünə tər çiçəklər düzürlər.

# Müdafiə nazirliyinin məlumatı



Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən istifadə etməklə sutka ərzində atəşkəs rejimini 49 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Ayqepar, Mosesqex, Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Hacallı, Ağdam, Koxanəbi, Ağbulaq və Muncuqlu kəndlərində, Yeğeqnadzor rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

**23 Sentyabr 2020-ci il**

# Əhmədiyyə Cəbrayılovun 100 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

## SƏRƏNCAMI

2020-ci ilin sentyabr ayında Azərbaycan xalqının igid övladı, İkinci Dünya müharibəsi dövründə antifaşist Müqavimət hərəkatının görkəmli nümayəndəsi, əfsanəvi partizan Əhmədiyyə Mikayıl oğlu Cəbrayılovun anadan olmasının 100 illiyi tamam olur.

Əhmədiyyə Cəbrayılov bəşəriyyətin XX əsrdə məruz qaldığı qorxunc faşizm təhlükəsindən xilas edilməsində və nasizm üzərində qələbə çalınmasında böyük xidmətlər göstərmiş Azərbaycan xalqının mərd oğlu kimi rəşadətli döyüş yolu keçmişdir. 1941-ci ildə müharibənin başlanması ilə ölkənin müdafiəsi üçün könüllü surətdə cəbhəyə yollanan Əhmədiyyə Cəbrayılov daha sonralar Fransa Müqavimət hərəkatında fəal iştirak etmişdir. Əhmədiyyə Cəbrayılovun yüksək bacarıqla həyata keçirdiyi çoxsaylı kəşfiyyat əməliyyatlarındakı misilsiz şücaətləri layiqincə qiymətləndirilmişdir. Fransa dövlətinin orden və medalları ilə təltif edilmiş həmvətənimizin, eyni zamanda Müqavimət hərəkatı iştirakçıları sırasında xatirəsi əbədiləşdirilmişdir. Əhmədiyyə Cəbrayılovun Vətənimizin suverenliyi və ərazi bütövlüyünün qorunması uğrunda döyüşlərdə canını fəda edərək uca şəhidlik mərtəbəsinə yüksəlmiş oğlu Mikayıl Cəbrayılov Azərbaycanın ilk Milli Qəhrəmanlarındandır.

Xalqımızın qəhrəmanlıq ənənələrini Azərbaycanın hüdudlarından uzaqlarda layiqincə yaşatmış Əhmədiyyə Cəbrayılovun igidlikləri işğal altındakı torpaqlarımızı hər an azad etməyə qadir olan Azərbaycan Ordusunun mətin əsgəri üçün fədakarlığın parlaq rəmzi, hünər və cəsarətin bariz nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyəsində xüsusi əhəmiyyətini nəzərə alaraq, Azərbaycan xalqının cəsur övladı Əhmədiyyə Cəbrayılovun anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

**1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun 100 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.**

**2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.**

**Bakı şəhəri,**
**11 avqust 2020-ci il**

# *Milli Qəhrəman Mikayıl Əhmədiyyə oğlu Cəbrayılov*

Mikayıl Cəbrayılov 27 aprel 1952-ci ildə Şəki rayonunun Oxud kəndində, ikinci dünya müharibəsində əfsanəvi partizan olan Fransa milli qəhrəmanı Əhmədiyyə Cəbrayılovun ("Armed Mişel") ailəsində doğulmuşdur. Orta təhsilini doğulduğu kənddə almağa başlayır. O, səkkizinci sinfə qədər doğulduğu kənddə oxumuş, sonra isə təhsilini Şəki şəhər 5 saylı fəhlə gənclər məktəbində davam etdirmişdir. 1971-ci ildə Şəki Şəhər Daxili İşlər Şöbəsində milis nəfəri vəzifəsinə qəbul edilir. Daha sonra Milis məktəbinə daxil olur, 1978-ci ildə bu



məktəbi bitirir, leytenant rütbəsi alır və sahə müvəkkili təyin edilir.

**Döyüşlərdə iştirakı**

1990-cı ildə Mikayıl dörd nəfər polislə Qarabağa ezam olunur. Onlar Cəmilli kəndini müdafiə etməli idilər. Bir müddət sonra o Kosalara, əhali üçün ayrılmış taxılı gətirməyə gedir. Cəmilli-Kosalar arasındakı yolda qəflətən erməni quldurları onlara basqın edir. Zabitlərdən biri snayper gülləsindən ağır yaralanır, erməni basqınçıları ilə ölüm-dirim savaşına atılan Mikayıl çiynindən güllə yarası alır. Buna baxmayaraq, o, təslim olmur və 1990-cı il 15 dekabrda əsir düşən döyüş yoldaşlarını xilas edərkən qəhrəmancasına, son anadək vuruşaraq döyüş meydanında həlak olur.

# MÜDAFİƏ NAZİRLİYİNİN BƏYANATI

Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində və Ermənistanla dövlət sərhədi istiqamətində vəziyyət düşmən tərəfindən məqsədyönlü şəkildə getdikcə daha da gərginləşdirilir.

Son zamanlar Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atəşkəs rejiminin kobud şəkildə pozulması hallarının artması, təmas xəttinə yaxın yaşayış məntəqələrimizin, mülki əhalinin və infrastrukturun müntəzəm atəşə tutulması, daha iriçaplı silahlardan istifadə olunması, mövqelərimizə qarşı keçirilən kəşfiyyat-təxribat fəaliyyətləri, o cümlədən pilotsuz uçuş aparatlarının (PUA) geniş tətbiqi cəbhədə vəziyyətin ciddi kəskinləşməsinə səbəb olub.

Bütün hallarda Azərbaycan ordusunun qoşun növlərinin tətbiqi ilə düşmən təxribatlarının qarşısı alınıb və o, ağır itkilərə məruz qalıb. Belə ki, son vaxtlar Hava Hücumundan Müdafiə bölmələrimizin fəaliyyəti nəticəsində düşmənin daha bir taktiki PUA-sı məhv edilib.

Sentyabrın 21-də saat 09:20 radələrində Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində düşmənin növbəti təxribatı nəticəsində isə Azərbaycan ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, kiçik çavuş Məmmədov Elşən Əli oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına dərin hüznlə başsağlığı verir və səbir diləyir!

Bəyan edirik ki, cəbhədə vəziyyətin gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.



# Dünyanın ən varlı adamlarının sərvəti bir gündə 23 mlrd. dollar azalıb



Dünyanın ən varlı on iş adamından doqquzunun ümumi sərvəti bazar ertəsi günü 22,9 milyard dollar azalıb.
Bu məlumat "Forbes Real-Time" reytinqində əks etdirilib. Bildirildiyi kimi, əsas səbəb birjalardakı enişdir.
Ən böyük itki "Louis Vuitton" şirkətinin sahibi və Avropanın ən varlı iş adamı Bernard Arnault-da olub – milyarderin sərvəti 5,5 milyard dollar azalıb. Fond bazarlarındakı eniş səbəbindən "Forbes" reytinqdə onun yerini "Microsoft" korporasiyasının keçmiş rəhbəri Bill Gates tutub. Qeyd edildiyi kimi, Bill Gates-in sərvəti 1,7 milyard dollar azalıb.
Siyahının lideri və "Amazon" şirkətinin baş direktoru Jeff Bezos isə qiymətləndirmələrə görə 3,8 milyard dollar itirib.
Günün antiliderlərinə həmçinin investor Warren Buffet (3,4 milyard dollar itirib) və "Facebook"un rəhbəri Mark Zuckerberg (2,6 milyard dollar itirib) daxildir.
Xatırladaq ki, bir neçə gün əvvəl "Oracle" şirkəti "Walmart" ilə birlikdə "TikTok"la müqavilə bağlamışdır.
Bazar ertəsi günü bütün fond indekslərində eniş qeydə alınıb: Dow Jones – 2,76%, S&P 500 – 2,13%, Nasdaq – 1,1% azalıb. Bundan əlavə, ABŞ-ın dövlət istiqrazlarının gəlirliliyi də enib – 0,27%. Bu o deməkdir ki, onlara tələb artıb və investorlar özlərini daha etibarlı aktivlərlə sığortalamağa çalışırlar.

# Yaponiya şirkəti koronavirusu öldürən ultrabənövşəyi lampanın istehsalına başlayıb



Yaponiyanın işıq avadanlığı istehsalı sahəsində tanınmış "Ushio Inc." şirkəti bu yaxınlarda dünyada ilk dəfə insan sağlamlığı üçün təhlükə yaratmadan koronovirusu öldürən ultrabənövşəyi lampanın istehsalına başlayıb.
Şirkətin Kolumbiya Universiteti ilə birlikdə hazırladığı "Care 222" ultrabənövşəyi lampası insanların daim girib-çıxdığı yaşayış sahələrinin, o cümlədən ictimai nəqliyyat vasitələrinin, lift və ofislərin dezinfeksiyası üçün nəzərdə tutulub. Bildirilir ki, ultrabənövşəyi şüalar adətən səhiyyə və qida sənayesi obyektlərinin sterilizasiyası üçün istifadə olunur. Lakin ultrabənövşəyi lampalar dəri xərçənginə və gözlərdə problemin yaranmasına səbəb olduğuna görə bu lampalardan insanların olduğu məkanlarda istifadə edilmir.
"Ushio" şirkətinin təklif etdiyi yeni lampalarda 222 nanometr uzunluğunda ultrabənövşəyi şüalardan istifadə edildiyinə görə, bu lampalar mikrobları məhv etdiyi halda, insan sağlamlığı üçün təhlükə yaratmır.
Bu yaxınlarda üçüncü tərəf olaraq Hiroşima Universitetində aparılan sınaqlar 222 nanometr uzunluğunda ultrabənövşəyi dalğaların koronovirusu məhv etdiyini və onun insanların sağlamlığı üçün təhlükə yaratmadığını təsdiq edib.
Bildirilir ki, quruluşuna görə kitab ölçüsündə olan və çəkisi cəmi 1,2 kiloqram təşkil edən "Care 222" aparatının satış qiyməti 300 min yenə (təqribən 2860 dollar) bərabərdir.
Hazırda şirkət tərəfindən yalnız səhiyyə müəssisələri üçün həmin avadanlığın sifarişi qəbul edilir.

# ABŞ İran Müdafiə Nazirliyinə yeni sanksiyalar tətbiq edib



ABŞ administrasiyası İran Müdafiə Nazirliyinə qarşı yeni sanksiyalar tətbiq etdiklərini açıqlayıb.
Bu barədə ABŞ-ın dövlət katibi Mayk Pompeo Vaşinqtonda jurnalistlərə məlumat verib.
O, sanksiyaların İranın nüvə və silah proqramlarında əli olanların hamısına, o cümlədən Venesuela Prezidenti Nikolas Maduroya şamil olunduğunu bildirib: "Sizin kim olduğunuzun fərqi yoxdur, yəni əgər İranın silah proqramına qarşı BMT-nin sanksiyalarını pozursunuzsa, özünüz sanksiya riskilə üzləşirsiniz. Bizim sanksiyalar da bunu dünya boyu hər kəsə çatdırmaq üçündür. Bu gün göstərdiyimiz səylər onların regionda və bütün dünyada terroru alovlandırmaq üçün maddi ehtiyatlar və sərvətlər əldə etmələri ehtimalının azalmasınadək davam edir".
Ölkənin Müdafiə naziri Mark Esper də gələcəkdə İranın təcavüzünə hazır olduqlarını söyləyərək rəsmi Tehranı normal ölkə kimi davranmağa çağırıb.
M.Pompeo həmçinin İranın uranın zənginləşdirilməsi əməliyyatlarında iştirak etdiklərinə görə 2 nəfərin, ticarət naziri Uilbor Ross da bütövlükdə 5 nəfər iranlı tədqiqatçının sanksiya siyahısına salındıqlarını bildirib.

# Çexiya naziri koronavirus səbəbindən istefa verib



Sentyabrın 21-də Çexiya Səhiyyə Nazirliyinin başçısı Adam Voytex istefa verib.
"Radio Praqa" xəbər verir ki, "Ano" partiyasının üzvü, son 3 ildə bu vəzifəni tutan nazir qurumun rəhbərliyindən getmək niyyəti barədə bildirib və bu qərarını ölkədə COVID-19 pandemiyası ilə bağlı vəziyyətin pisləşməsi ilə əlaqələndirib. Bununla yanaşı, Voytex jurnalistlərə müsahibəsində ölkənin bu ilin yazında koronavirusun birinci dalğasının öhdəsindən yaxşı gəldiyini söyləyib. Müxalifət isə bu fikirlə heç də razı deyil.
Bildirilir ki, ötən bazar yoluxanların siyahısına 985 nəfər əlavə olunub. Bu, ötən həftə ərzində ən aşağı göstərici hesab edilir. Lakin onu da nəzərə almaq lazımdır ki, adətən, bazar günlərində iş günlərinə nisbətən daha az vətəndaş test analizləri verir. Ölkədə paytaxtla yanaşı, Uqerske-Qradişte və Kromerjije şəhərlərində də vəziyyət qənaətbəxş deyil.

# Çin Amerika şirkətlərinin "qara siyahı"sını tərtib edəcək

Çin səlahiyyətliləri ABŞ-ın texnoloji şirkətlərinin "qara siyahı"sını hazırlayır, lakin siyahının nə vaxt açıqlanacağı ilə bağlı yekun qərar verilməyib. Bu barədə "The Wall Street Journal" məlumat yayıb.
Nəşr bildirib ki, rəsmi Pekin Vaşinqtonun Çin şirkətlərinə qarşı hərəkətlərinə cavab verməyə çalışsa da, ABŞ-ın gördüyü tədbirlərdən daha sərt addımlar atmaq istəmir. Qəzetin yazdığına görə, "qara siyahı" ABŞ-da keçiriləcək prezident seçkilərindən öncə açıqlana bilər.

# Bakcell və tərəfdaşları ilə "Xəzəri qoruyaq"




Beynəlxalq Sahilyanı Təmizlik Günü çərçivəsində Bakı çimərliklərində "Xəzəri qoruyaq" şüarı ilə növbəti təmizlik aksiyası keçirilib.
"Coca-Cola", Bakcell, PASHA Bank, "Carlsberg", "AzEcol" şirkətləri, ASAN Xidmət və Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təşkil olunan aksiya Bakının 20 müxtəlif çimərliyində baş tutub. Tədbirə qatılan və dəstək olan digər qurumlar sırasında "ASAN Könüllüləri", Azərbaycan Dövlət Reklam Agentliyi, ASAN Radio, AFFA, Milli Olimpiya Komitəsi və Azərbaycan Velosiped İdmanı Federasiyası da var.
Ekoloji durumun yaxşılaşdırılması, əhalinin maarifləndirilməsi və ətraf mühitə qayğının təbliğ edilməsi məqsədilə həyata keçirilən tədbir çərçivəsində bu il Bilgəh, Novxanı, Mərdəkan, Pirşağı, Şıxov, Hövsan və Sumqayıt ərazisində olan çimərliklər tullantılardan təmizlənib.
Sosial məsafənin qorunmasını təmin etmək üçün bu dəfə təmizlik aksiyasında iştirak edən könüllülər 10 nəfərdən ibarət kiçik qruplara bölünərək fərqli məkanlarda təmizlik işləri aparıblar. Nəticədə 5 min ton həcmində tullantı toplanaraq, təkrar emala və utilizasiyaya yönləndirilib.
Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın müvafiq qərarına uyğun olaraq sahilyanı təmizlik aksiyasının bütün iştirakçıları tibbi maska və antiseptik vasitələrlə təmin olunublar. Sosial məsafənin qorunması ilə yanaşı, ölkə ərazisində tətbiq edilən xüsusi karantin rejimi dövründə mövcud məhdudiyyətlər nəzərə alınıb. Bütün aksiya iştirakçıları təşkilatçılar tərəfindən nəqliyyat, idman köynəkləri, sərinləşdirici içkilər və qida, həmçinin təmizlik ləvazimatları ilə təmin olunublar.

# Roman Abramoviç qeyri-qanuni əməldə şübhəli bilinir




İngiltərənin "Çelsi" klubunun sahibi Roman Abramoviç futbolçuların hüquqlarını qeyri-qanuni ələ keçirməkdə şübhəli bilinir.
BBC xəbər verir ki, ABŞ Maliyyə Nazirliyinin pulların yuyulması ilə mübarizə aparan şöbəsi rusiyalı biznesmenin öz klubundakı oyunçuları Britaniya Virgin adalarında qeydiyyata alınmış ofşor şirkət vasitəsilə almasından şübhələnib.
Araşdırma məlumatlarına əsasən, söhbət bir neçə futbolçudan gedir. Onların arasında hazırda Səudiyyə Ərəbistanının "Əl-Hilal" klubunda çıxış edən Peru yığmasının cinah oyunçusu Andre Karrilyo da var. Karrilyo 2014-cü ildə Portuqaliya "Sporting"inin heyətində "Çelsi"yə qarşı Çempionlar Liqası matçında meydana çıxıb. 2016-cı ildə ofşor şirkətin adalarda qeyri-adi fəallığı qeydə alınıb. Qısa müddətdə orada 1 milyard ABŞ dollarını aşan maliyyə əməliyyatları edilib.

**ALLAH RƏHMƏT ELƏSİN**

Professor Elşən Hacızadə "Azneft" İB-nin baş direktoru Şahmar Hüseynova anası
**ZEMFİRA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, «Azermedia» MMC nəşriyyatı mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500